RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 103 (9270) 18 MAY 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XVI "Caspian Agro" və XXVIII "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar

**Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı-Ekspo" Mərkəzində XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar. AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlət başçısına və birinci xanıma sərgilərlə bağlı məlumat verdi.**

Bildirildi ki, hər il olduğu kimi bu il də sərgilərə iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraq göstərilir. "Bakı-Ekspo" Mərkəzinin bütün mümkün pavilyonlarını və açıq sahəsini əhatə edən sərgilərdə rekord sayda milli və regional stendlər nümayiş etdirilir. Ümumilikdə sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir, 9 ölkə isə milli stendlərlə təmsil olunur. "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, habelə Rusiyanın regional qrupları, eləcə də builki debütant ölkələr - Tunis və Çexiyadan olan milli qruplar iştirak edirlər.

→ 2

# Unutmağa haqqımız yoxdur!

## İflasa uğramışların zorən səmimi etirafları

Hər dəfə may gələndə bayramlarla zəngin olan bu ayda AXC-Müsavat cütlüyünün məşhur "1993-cü ilin 25 may konfransı" da yada düşür.

**Hakimiyyət dövrü "quş yuxusu" qədər çəkən bu cütlüyün özünüifşa konfransı.**

**Özündən müştəbeh "bəy"lərin üzqaralığının göstəricisi sayılan konfransı.**

*AXC-Müsavat cütlüyü hakimiyyətə gəlmək eşqinə düşdükləri gündən 1993-cü ildə vəzifələrini "donduraraq" aradan çıxdıqları anadək təkcə bu "hesab konfransı"nda səmimi oldular.*

*Hər şeyi düz danışdılar, olanları söylədilər.*

→ 7

# İlham Əliyev Kasım-Jomart Tokayevi təbrik etdi



Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.

Dövlətimizin başçısı Kasım-Jomart Tokayevi yubileyi münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, Qazaxıstanın inkişafı və firavanlığı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Qazaxıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Azərbaycan Prezidenti bu ilin aprelində Qazaxıstana səfərini məmnunluqla xatırladaraq, göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirib, səfərin uğurla nəticələndiyini və ikitərəfli münasibətlərin inkişafına güclü təkan verdiyini vurğulayıb.

Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycanla Qazaxıstan arasında dostluq və qardaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı məsələləri müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

# Slovakiya Azərbaycanın ərazi bütövlüyünü tam və qəti şəkildə dəstəkləyir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Slovakiya Parlamentinin Sədri Boris Kolları qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyətinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi, bunu ölkələrimiz arasında əlaqələrin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında fəal dialoqun həyata keçirilməsindən məmnunluğunu bildirərək Boris Kolların səfərinin əməkdaşlığın perspektivləri ilə bağlı müxtəlif sahələrdə, o cümlədən parlamentlərarası əlaqələrin inkişafı üzrə müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını dedi.

Enerji sahəsində əlaqələrə toxunan dövlətimizin başçısı bu ilin aprelində Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında anlaşma memorandumunun imzalanmasının önəmini qeyd etdi, "Həmrəylik Halqası" STRİNG layihəsi çərçivəsində də ölkələrimiz arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu bildirdi.

→ 3

# Azərbaycan Prezidenti İlham Əliyev Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri Mixail Myasnikoviçi qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Mixail Myasnikoviç Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı, Ulu Öndərin böyük tarixi şəxsiyyət kimi Azərbaycanın inkişafında müstəsna rolunu qeyd etdi.

Görüşdə Azərbaycanın Avrasiya İqtisadi İttifaqına daxil olan üzv dövlətlərlə ticarət dövriyyəsinin və ticarət imkanlarının genişləndirilməsi barədə müzakirələr aparıldı. Mixail Myasnikoviç Prezident İlham Əliyevə əməkdaşlıq istiqamətləri barədə təkliflər verdi.

# Türkiyədən demokratiya dərsi

Türkiyənin yerləşdiyi coğrafiya çox mürəkkəbdir: "Qardaş ölkədə geosiyasi təhlükələr daim mövcud olduğuna görə həmin bölgədə tarixboyu ciddi toqquşmalar baş verib. Türkiyə son 100 ildə də ciddi problemlərlə üzləşib. Lakin 2002-ci ildə Baş nazir seçilmiş Rəcəb Tayyib Ərdoğan ilk gündən başlayaraq ölkədə çox böyük işlər həyata keçirib, Türkiyənin dünyadakı nüfuzunun artmasına birbaşa səbəb olub. Təsadüfi deyil ki, bu gün Türkiyə G20-nin üzvü və Avropanın ən inkişaf etmiş ölkələrindən biridir".

"Ölkədə, demək olar ki, hər gün böyük qələbələrə imza atılır. Türkiyə vətəndaşları da Ərdoğanın misilsiz xidmətlərinə laqeyd yanaşmırlar. Bunun nəticəsidir ki, ölkəyə 20 ildən artıq rəhbərlik edən Rəcəb Tayyib Ərdoğan seçkidə rəqiblərindən çox səs toplayıb".

→ 10

# Bakıda Bədii Gimnastika üzrə 39-cu Avropa Çempionatının təntənəli açılış mərasimi olub



→ 12

# Tariximizdən soraq verən Şuşa şəhərinin muzeyləri

Azərbaycanın mədəniyyət mərkəzi, Qarabağın baş tacı olan Şuşada 8 muzey fəaliyyət göstərib. Dövlət Qarabağ Tarixi Muzeyi, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin ev, vokal sənətimizin banisi Bülbülün memorial, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı tarixi əhəmiyyətli eksponatlarla zəngin olub.

Şuşa Azərbaycan tarixində müstəsna yeri və xidmətləri olan bir çox görkəmli şəxsiyyətin böyüyüb boya-başa çatdığı, fəaliyyət göstərdiyi şəhər kimi də tanınır. Onlardan bəzilərinin - Mir Möhsün Nəvvabın, Xurşidbanı Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri fəaliyyət göstərib.

→ 11

# Sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir














*Əvvəli 1-ci səh.*

Dövlət başçısı və birinci xanım sərgidə "Grow Group Azərbaycan", "Maschio Gaspardo", "New Holland", "Rostselmaş", "MySilo", "Rauch Landmashchinen", "Swiss-Grow", "AfiMilk", "Gowan", "Can-Pa" şirkətlərinin, Çexiyanın, İtaliyanın, Belarusun, Gürcüstanın, ABŞ-nin və Niderlandın stendləri ilə tanış oldular. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikaları, əkin-biçin aqreqatları və kənd təsərrüfatı məhsulları təqdim olunur.

Naxçıvan Muxtar Respublikasının stendi ilə tanışlıq zamanı bildirildi ki, kənd təsərrüfatı məhsullarının istehsalında ərzaq və qida təhlükəsizliyi başlıca şərtlərdən biridir və Naxçıvan fermerləri daha çox orqanik məhsulları yetişdirməyə üstünlük verirlər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə tanış oldular. Burada Ümummilli Lider Heydər Əliyevə həsr olunan xüsusi təqdimat hazırlanıb. Bildirildi ki, bu il xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Buna görə də sərgilər də məhz Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Azərbaycanda aqrar sahənin inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır. Ümummilli Lider Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradır.





Pavilyonda həmçinin elmi-tədqiqat institutlarının ən son nailiyyətləri, "yaşıl enerji" mənbələrinə dair qurğu və məhsullar nümayiş olunur.

Burada müxtəlif yarış və müsabiqələrin qalib aqrar startapçıları tərəfindən arıçılıqda "varatoz" gənəsinə qarşı mübarizə, ənənəvi balıqyetişdirmə üsullarını hidroponik əkinçiliklə birləşdirən sistem, bioqaz, alternativ enerji mənbələrindən əldə edilmiş hidrogen qazı, ağıllı istixana idarəetmə sistemi, alaq otlarını lazer sistemi ilə təmizləyən aqrorobot, avtomobillər üçün portativ qida bloku, külək və günəş izləmə qurğuları, idarəolunan günəş panelləri, uzaqdan idarəolunan sayğaclar, külək turbinləri, iqlim stansiyası, dəqiq suvarma idarəçiliyi üçün sensor, suvarmada istifadə olunan günəş enerjisi ilə işləyən inventorlar sərgilənir.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların və müasir texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir. Kənd təsərrüfatının intensiv inkişafı həm də aqrar sektorda innovasiyaların tətbiqindən birbaşa asılıdır. Aqrar sahələrdə innovasiyalardan istifadə günümüzün çağırışı olduğundan sərgilər kənd təsərrüfatı məhsullarının istehsalçılarına bu innovativ yeniliklərlə əyani tanış olmağa imkan verir. Bildirildi ki, "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində KOBİA-nın dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər.

Sərgi çərçivəsində açıq sahədə kənd təsərrüfatında istifadə olunan texnikalar nümayiş olunur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərtexnika" MMC, "Agritex" MMC, "Agromotors" şirkətlərinin və Gəncə Avtomobil Zavodunun texnikaları ilə tanış oldular.

Qeyd edək ki, üç gün davam edəcək sərgilər çərçivəsində Aqrar İnnovasiyalar Forumu təşkil olunacaq. Forumda "Kənd təsərrüfatının inkişafında Heydər Əliyevin uğurlu aqrar siyasəti", "Kənd təsərrüfatında innovativ həllərə əsaslanan texnologiyalar", "Orqanik kənd təsərrüfatı", "Rəqəmsal kənd təsərrüfatı", "Yaşıl kənd təsərrüfatı" və digər mövzular müzakirə ediləcək.

"InterFood Azerbaijan" sərgisi çərçivəsində dekorativ yeməklərin kompozisiyasından ibarət "Qida - sənət əsəri" sərgisi, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Qızıl Şah - Qızıl Yüzlük" III Milli Kulinariya Çempionatı da təşkil ediləcək.








# Slovakiya Azərbaycanın ərazi bütövlüyünü tam və qəti şəkildə dəstəkləyir

*Əvvəli 1-ci səh.*



Prezident İlham Əliyev ticarət, qarşılıqlı investisiya qoyuluşu, nəqliyyat sahələrində də əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən qonaq Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etməkdən şərəf duyduqlarını vurğuladı. Ulu Öndərin böyük müdrikliyə və güclü iradəyə malik, xarizmatik şəxsiyyət olduğunu, Azərbaycanın dövlətçiliyinin əsasını qoyduğunu deyən Slovakiya Parlamentinin Sədri məhz onun uzaqgörənliyi nəticəsində ölkəmizin davamlı surətdə inkişaf etdiyini diqqətə çatdırdı.

Azərbaycanın çox müasir və gözəl olduğunu vurğulayan Boris Kollar ölkəmizə ikinci dəfə gəldiyini dedi, ötən il Şuşaya səfərini məmnunluqla xatırlatdı.

Slovakiyanın Azərbaycanın ərazi bütövlüyünü tam və qəti şəkildə dəstəklədiyini deyən Boris Kollar işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərini qeyd etdi, orada Slovakiya şirkətlərinin də fəaliyyət göstərməkdə və müxtəlif layihələrdə iştirak etməkdə maraqlı olduğunu diqqətə çatdırdı.

Minatəmizləmə sahəsində Azərbaycanın Slovakiya şirkətləri ilə səmərəli əməkdaşlığına toxunan qonaq ölkəsində istehsal olunan minatəmizləmə maşınlarının humanitar minatəmizləmə fəaliyyəti üçün ərazidə səmərəli şəkildə tətbiq olunduğunu xüsusi vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində gələcək əməkdaşlıq məsələləri müzakirə olundu, bu yaxınlarda Bolqarıstanda əsası qoyulmuş "Həmrəylik Halqası" təşəbbüsü çərçivəsində Azərbaycan qazının Slovakiyaya çatdırılması istiqamətində böyük perspektivlərin olduğu bildirildi.

Görüşdə Slovakiyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına verdiyi dəstək yüksək qiymətləndirildi.

# "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1305-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 349 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1305-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 349 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2262) 3.2-ci bəndində "həyata keçirir" sözləri "və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirirlər" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2023-cü il*

# YAP İdarə Heyətinin iclası keçirilib

**Mayın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib.**






YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib. İclasın müzakirəsinə YAP Hacıqabul Rayon Təşkilatının sədri Elnur Mehman oğlu Əmirəslanovun vəzifəsindən azad edilməsi, YAP Gəncə Şəhər Təşkilatına və YAP Hacıqabul Rayon Təşkilatına sədrlərin təyin olunması, Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı partiyanın rayon (şəhər) təşkilatlarının təqdimatlarına baxılması və cari məsələlər çıxarılıb.

İclasda ilk olaraq YAP Hacıqabul Rayon Təşkilatının sədri Elnur Mehman oğlu Əmirəslanovun səhhəti ilə bağlı vəzifəsindən azad edilməsi barədə ərizəsinə baxılıb və müvafiq qərar qəbul olunub.

Sonra YAP Gəncə Şəhər Təşkilatının sədri vəzifəsinə partiyanın İdarə Heyətinin üzvü Bayram Mirazim oğlu Aslanovun və YAP Hacıqabul Rayon Təşkilatının sədri vəzifəsinə İsmayıl Hüseyn oğlu İbrahimovun təyin olunması məsələsinə baxılıb. YAP İdarə Heyətinin üzvləri Hikmət Məmmədov, Musa Quliyev, Pərvin Kərimzadə, Amin İsmayılov, Asif Əsgərli, Tofiq Cahangirov və Elmar Qasımov çıxış edərək hər iki şəxsin namizədliyini dəstəklədiklərini bildirib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Müzakirələrdən sonra Bayram Mirazim oğlu Aslanovun YAP Gəncə Şəhər Təşkilatının sədri, İsmayıl Hüseyn oğlu İbrahimovun isə partiyanın Hacıqabul Rayon Təşkilatının sədri vəzifəsinə təyin olunması haqqında qərar qəbul olunub. Bayram Aslanov və İsmayıl İbrahimov çıxış edərək təşəkkürlərini bildirib və göstərilən etimadı layiqincə doğrultmağa çalışacaqlarını vurğulayıblar.

İdarə Heyətinin iclasında Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı YAP rayon (şəhər) təşkilatlarının təqdimatlarına da baxılıb. YAP İdarə Heyətinin üzvləri Bahar Muradova və Elmar Qasımov çıxış edərək məsələyə münasibət bildiriblər. 15 nəfərin partiyanın nüfuzuna xələl gətirən hərəkətlərinə görə YAP sıralarından xaric olunmasına dair qərar qəbul olunub.

Cari məsələlərlə bağlı müzakirələr zamanı isə YAP İdarə Heyətinin üzvləri Musa Quliyev, Tahir Mirkişili, Kamal Cəfərov və Elmar Qasımov çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

## *Tariq Mahmud ƏHMƏD:*

# "Böyük Britaniya regionda sülhün bərqərar edilməsi istiqamətində səyləri dəstəkləyir"

Mayın 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurasının Dövlət və Hökumət Başçılarının 4-cü Zirvə Görüşü çərçivəsində Böyük Britaniyanın Yaxın Şərq, Şimali Afrika, Cənubi Asiya və BMT üzrə dövlət naziri Tariq Mahmud Əhməd ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən regional məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov iki ölkə arasında siyasi, iqtisadi, enerji təhlükəsizliyi, ticarət, investisiyalar, nəqliyyat, təhsil, mədəniyyət və digər sahələr üzrə səmərəli əməkdaşlıq gündəliyinin mövcudluğunu qeyd edərək, bu xüsusda əlaqələrin daha da inkişaf etdirilməsi üçün imkanlardan istifadənin zəruriliyini diqqətə çatdırıb.

Böyük Britaniyanın Azərbaycan iqtisadiyyatına ən çox sərmayə yatıran ölkə olduğunu bildirən nazir Ceyhun Bayramov iki ölkənin birgə layihələrin həyata keçirilməsi təcrübəsinə məmnunluqla istinad edərək, bu uğurlu əməkdaşlığın davam etdirilməsində maraqlı olduğumuzu söyləyib. Ölkələrimiz arasında neft və qaz sənayesi sahəsində strateji əməkdaşlığa istinad edilərək alternativ enerji resurslarının inkişaf etdirilməsi üçün geniş imkanların olduğu vurğulanıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhlükəsi ilə mübarizə, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyi ilə bağlı qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov bu xüsusda Böyük Britaniyanın mina təhdidinə qarşı mübarizə istiqamətində göstərdiyi dəstəyi yüksək qiymətləndirib.

Dövlət naziri Tariq Mahmud Əhməd diplomatik münasibətlərin əsasının qoyulmasından ötən müddətdə Azərbaycan ilə Birləşmiş Krallıq arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə qarşılıqlı faydalı strateji əməkdaşlıq gündəliyinin formalaşdığını diqqətə çatdırıb. Ölkələrimiz arasında strateji dialoqun genişləndirilməsinin vacibliyini qeyd edib. Hər iki dövlət arasında mədəni və təhsil sahəsində əməkdaşlığa verilən əhəmiyyət vurğulanıb. Böyük Britaniyanın regionda sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində səyləri, o cümlədən Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesini dəstəklədiyi bildirilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan QHT-ləri ABŞ Dövlət Departamentinin dini azadlıqlarla bağlı hesabatına etiraz bəyanatı yayıblar

Mayın 17-də Azərbaycanda fəaliyyət göstərən bir qrup qeyri-hökumət təşkilatı Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti tərəfindən bu günlərdə açıqlanan dünyada dini azadlıqların vəziyyətinə dair növbəti illik hesabatına qarşı etiraz bəyanatı yayıb.

AZƏRTAC xəbər verir ki, bununla bağlı tədbirdə çıxış edən "Abidələri Müdafiə Təşkilatı" İctimai Birliyinin sədri Faiq İsmayılov ümumilikdə ermənilər Qarabağda Azərbaycan tarixinə aid 104 dini tikilini erməni monastırı kimi dünyaya çatdırdıqlarını deyib. Bildirilib ki, bütün bunlara baxmayaraq, Azərbaycandakı dini və mədəni abidələr öz orijinallığını qoruyub saxlayıb və dağıdılmayıb.

Daha sonra "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri İradə Rzazadə qeyri-hökumət təşkilatı adından bəyanatı səsləndirib.

Bəyanatda deyilir: "Bu yaxınlarda ABŞ Dövlət Departamentinin rəsmi saytında 2022-ci il üzrə beynəlxalq dini azadlıqla bağlı hesabatda Azərbaycan barədə yazı dərc olunub.

Xatırladırıq ki, Prezident İlham Əliyevin 2021-ci il iyunun 16-da imzaladığı "Dini etiqad azadlığı haqqında" qanun ölkəmizdə bu istiqamətə xüsusi önəm verildiyi bir daha göstərilir.

Ölkəmizdə multikulturalizmin və multikonfessional icmaların mövcud olması, eyni zamanda Azərbaycanda rus və gürcü pravoslav kilsələri, erməni apostol kilsəsi, Yeddinci günün adventistləri, Molokan kilsəsi, Roma katolik kilsəsi, yevangelistlər, baptistlər və Yehovanın şahidləri, yəhudilərin və bəhailərin sinaqoqları, məbədləri və digər dini evlərin fəaliyyət göstərməsi buna daha bir sübutdur".

Vurğulanıb ki, hesabatda ölkəmizin dini və mədəni obyektlərin, xüsusilə də bu yaxınlarda Ermənistanın nəzarətindən azad edilmiş ərazilərinin mühafizəsinə səhlənkar yanaşıldığı göstərilir. Bu, təəssüf doğuran təhrifdir.

"BMT Təhlükəsizlik Şurasının işğal faktını tanıyan və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi var. Otuz dözülməz il ərzində biz ümid edirdik ki, sülh danışıqları bizə torpaqlarımızı sülh yolu ilə geri qaytarmağa imkan verəcək. Ermənistan tərəfinin işğalçılıq siyasəti hər zaman olduğu kimi, bu gün də acı təsirini göstərməkdədir. Azərbaycanın işğal olunmuş ərazilərinə vurulan zərərə və dağıntılara, xüsusilə də Ağdam, Füzuli və digər ərazilərin demək olar tamamilə dağıdılması və talan edilməsi, habelə son 30 il ərzində mədəni irsin istismarına görə Ermənistan tərəfi məsuliyyət daşıyır. Ermənistanın nəzarəti altında olarkən bu ərazilərdə yüzlərlə abidələr, məscid, ziyarətgah talan edilib, qəbiristanlıqlarımız vandalizmə, təhqirlərə məruz qalıb və ya tamamilə dağıdılıb, torpaqlarımız minalanmış sahəyə çevrilib. Necə olur ki, bizim həmişə azadlıq və demokratiya çırağı kimi qəbul etdiyimiz ABŞ heç vaxt bu hərəkətlərdən narahat olmayıb. ABŞ dini fanatiklərin əməllərindən əziyyət çəkdi. Bu ölkə dinindən asılı olmayaraq, "Allahın döyüşçüləri"nin gətirdiyi dəhşətlərdən xəbərdardır. Ancaq görünən odur ki, BMT ölkəmizi öz vətəndaşlarını qorumaq əzminə görə ittiham edir", - deyə bəyanatda qeyd olunub.

Hesabatdan gətirilən sitat: "2020-ci ildə Azərbaycanın nəzarətinə qaytarılan ərazilərdə minalarla çirklənmə səbəbindən azərbaycanlılar bir çox məscid və dini obyektləri ziyarət edə bilməyiblər". Qeyd edək ki, bu torpaqların "Azərbaycanın nəzarətinə qaytarılması" üçün 3000-dən çox azərbaycanlı fədakarlıq göstərərək son nəfəsinədək döyüşüb. Biz şadıq ki, hesabatda bu ərazilərin minalarla dolu olduğu etiraf edilir, bu da bir neçə məscidin əlçatan olmamasının əsas səbəbidir. Ancaq burada ermənilər tərəfindən dağıdılan və ya donuz tövləsinə çevrilən yüzlərlə məsciddən bəhs edilmir.

Ermənilərin işğal zamanı törətdikləri vandallıqlara heç nə haqq qazandıra bilməz. Ancaq məsələ ondadır ki, Azərbaycan tərəfindən heç vaxt belə bir addım atılmayıb. Biz Azərbaycanın istənilən dini və ya mədəni irsini qoruyub saxlamağa sadiqik. Bununla belə, biz heç kimə tariximizi təhrif etməyə, yenidən yazmağa imkan verməyəcəyik.

Vurğulanıb ki, dini etiqad və ya etiqad azadlığının pozulması ilə bağlı əsassız iddialar Azərbaycanın dini ekstremizmlə mübarizə apararkən üzləşdiyi əsas təhlükələri nəzərə almır. Ölkəmizdə sabitliyi pozmaq üçün səylərini əsirgəməyən qüvvələr var. İrandan idarə olunan ekstremist qruplar açıq şəkildə "Kərimə" dini dövlətinin yaradılmasını məqsəd kimi elan etmək planlarını belə gizlətmirlər. Biz Suriyadakı müharibənin acı afterşokları ilə üz-üzəyik. Şimali Qafqaz dini terrorizmə çox uğrayıb. Bu, Azərbaycanda çətinliklə əldə edilmiş sülh və sabitliyə təhlükə yaradır.

"Yuxarıda göstərilənlərin heç biri hüquq və azadlıqların pozulması üçün bəhanə deyil. Ancaq görünən odur ki, bəzi insanlar yerlərdə reallıqdan asılı olmayaraq, Azərbaycana böhtan atmaqda qərarlıdırlar. Böyük çətinliklərə baxmayaraq, biz tolerant multikultural cəmiyyət qura bilmişik. Biz yəhudilər, xristianlar və digər dini azlıqlarla münasibətlərimizdən qürur duyuruq, çünki onlar bizim dini azadlıqlara sadiqliyimizə sübutdur. Bununla belə, biz vətəndaşlarımızı dindən öz çirkin niyyətləri üçün pərdə kimi sui-istifadə edənlərdən qorumaq əzmimizdə qalırıq. Həyat yolunu seçmək, azadlığımızı əlimizdən almaq istəyənlərlə mübarizə haqqımızı müdafiə edəcəyik.

Biz, ölkənin QHT nümayəndələri hesab edirik ki, dini azadlıqlarla bağlı prosedur və qaydaları daha da təkmilləşdirmək üçün hökumətin vətəndaş cəmiyyəti ilə dialoqu davam etdirməsi vacibdir. Azərbaycan hökuməti bu hüquq və azadlıqlardan sui-istifadə edənlərə qarşı mübarizə aparmaqla yanaşı, ölkə vətəndaşlarının dini hüquq və azadlıqlarına hörmətlə yanaşmağa yönəlmiş bir sıra mühüm qərarlar qəbul etmişdir.

Qeyd olunur ki, Azərbaycan Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın iştirakçısıdır. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta lazımi hörmətlə yanaşsaq da, onun dini fundamentalizmi dəstəkləmək öhdəliyi olduğuna inanmırıq. Çoxumuz qürurlu müsəlmanıq, bəzilərimiz isə əməli fəaliyyət göstəririk. Bununla belə, biz hamımız İslamı bizə zərər vurmaq istəyənlər tərəfindən ələ keçirilməsindən müdafiə etməkdə dövlətimizi qətiyyətlə dəstəkləyirik. Biz dövlətimizin uşaqlarımızın gələcəyini qorumasını istəyirik. Azərbaycan İran deyil və olmayacaq. Mənşəyindən asılı olmayaraq, biz mollakratiya və ya dini ekstremizmin hər hansı digər formasını rədd edirik.

Əksər azərbaycanlılar üçün (bəzi nisbətən marjinal qruplar, ilk növbədə dini fanatiklər istisna olmaqla) ABŞ demokratiya və azadlıq modeli olub və olaraq qalır. Biz bir çox ziddiyyətli maraqların və dəyərlərin kəsişməsindəyik, çünki biz Birləşmiş Ştatların dünyəvi seçimlərimizi qorumaq üçün mübarizəmizdə bizimlə birlikdə olmasını gözləyirik.

Biz, qeyri-hökumət təşkilatlarının nümayəndələri beynəlxalq qurumlardan Ermənistanın orada yaşayan xalqların dini etiqad azadlıqlarına hörmət etməyə, dağıdılmış dini abidələrə görə cavab vermələrini tələb edirik", - deyə bəyanatda vurğulanıb.

Sonda tədbir iştirakçıları bəyanatla bağlı çıxış ediblər.

# ABŞ Dövlət Departamentinin dini azadlıqlara dair hesabatının ölkəmizlə bağlı hissəsi anti-Azərbaycan xarakteri daşıyır

Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti bu günlərdə dünyada dini azadlıqların vəziyyətinə dair növbəti illik hesabatı dərc edib.

Hesabatda Azərbaycan və Ermənistana dair hissələr yer alır. Hər iki hissə mahiyyəti üzrə qeyri-obyektiv olmaqla açıq-aşkar anti-Azərbaycan xarakteri daşıyır. AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qeyd olunub ki, Azərbaycanda erməni dini abidələri ilə bağlı əsassız iddialara geniş yer verən dövlət departamenti nədənsə Ermənistandan azərbaycanlıların etnik və dini nifrət zəminində tamamilə qovulması, bu ölkədə vaxtilə dövlət tərəfindən qeydiyyatdan keçmiş 300-ə yaxın məscidin, azərbaycanlılara məxsus bütün digər dini və mədəni irsin dağıdılması faktlarını görməzdən gəlir.

Dövlət departamentinin sözügedən hesabatında Azərbaycan ilə bağlı iddiaların yeganə mənbəyi kimi ABŞ-nin Kornel Universitetinin, əslində isə "Ümumerməni Xeyriyyə İttifaqı", "Aragats Fondu" kimi ekstremist təşkilatlar tərəfindən maliyyələşdirilən üç radikal millətçi erməni müəllifin (L. Xaçaturyan, H. Qulyan, S. Bokçeriyan) yazdıqları iftiranın göstərilməsi bu hesabatın qərəzli olmasını sübut edir.

Biz ABŞ Dövlət Departamentini hesabatın həmin hissələrini redaktə etməyə, əsassız iddiaları çıxarmağa və Ermənistanda tüğyan edən azərbaycanofob meyilləri, Azərbaycanın dini və mədəni irsinin, o cümlədən məscidlərin və qəbiristanlıqların dağıdılması kimi dini azadlıqların sistematik şəkildə pozulması faktlarını əks etdirməyə çağırırıq.

Həmçinin ABŞ hökumətini Ermənistanı sözügedən irsi dağıtmasını dayandırmağa və artıq dağıtmış olduqlarını bərpa etməyə məcbur etmək üçün səylər göstərməyə çağırırıq.

Nəhayət, ümid edirik ki, bizim ABŞ-nin Dövlət katibi Entoni Blinkenə müraciətimizə uyğun olaraq, ABŞ hökuməti Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarının təmin edilməsi, qayıtdıqdan sonra onların orada hüquq və azadlıqlarının, o cümlədən dini azadlıqlarının qorunması üçün müvafiq səylər göstərəcək.

# Azərbaycanla Qazaxıstan dost və qardaş ölkələrdir



Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Parlament Məclisinin Sədri Yerlan Koşanovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Sahibə Qafarova Qazaxıstan nümayəndə heyətinə, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin 100 illik yubileyində iştirakına və bu məqsədlə Milli Məclisin xüsusi iclasında çıxışına görə nümayəndə heyətinin başçısı Yerlan Koşanova təşəkkür edib.

Görüşdə qeyd olunub ki, Azərbaycan və Qazaxıstan dost və qardaş ölkələrdir. Ölkələrimiz arasında münasibətlərin əsası Ulu Öndər Heydər Əliyevin dönəmində qoyulub və bu gün hər iki ölkə liderləri tərəfindən uğurla davam etdirilir.

Bu gün Azərbaycan-Qazaxıstan əlaqələri siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə yüksələn xətlə inkişaf etməkdədir. Parlamentlərarası əlaqələrimiz də bu münasibətlərin tərkib hissəsidir. Deputatlarımızın qarşılıqlı səfərləri, mütəmadi görüşləri ümumi işin mənafeyinə xidmət edir.

Söhbətdə Qazaxıstan Parlament Məclisinin Sədri Yerlan Koşanov görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə dəvətə görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə edib. O, Heydər Əliyevin daim Qazaxıstanda dərin ehtiramla anıldığını söyləyib. Qeyd edib ki, Qazaxıstan dost ölkə kimi Azərbaycanın uğurlarına daim sevinir.

Qazaxıstanlı spiker Bakıya hər səfərində Azərbaycandakı inkişafın şahidi olduğunu söyləyib. Qeyd edib ki, Heydər Əliyevin memarı olduğu müasir Azərbaycan bu gün onun arzuladığı nailiyyətləri qazanır və bu böyük şəxsiyyətin ideyaları həyata keçirilir. Azərbaycan inkişaf edən stabil ölkədir və yerləşdiyi bölgədə özünəməxsus önəmli yer tutur.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Heydər Əliyevin Rusiyada gördüyü nəhəng işlər bu gün də minnətdarlıqla xatırlanır

Milli Məclisin Sədri Sahibə Qafarova Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Milli Məclisin xüsusi iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rusiya Federal Məclisinin Federasiya Şurası Sədrinin birinci müavini Andrey Yatskinilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri qonağı salamlayaraq, dəvəti qəbul edib Milli Məclisin Heydər Əliyevin 100 illiyi ilə bağlı xüsusi iclasında iştirakına görə Rusiya nümayəndə heyətinə və iclasdakı çıxışında Ulu Öndər haqqında söylədiyi səmimi sözlərə görə təşəkkürünü bildirib.

Görüşdə bildirilib ki, Azərbaycan-Rusiya münasibətlərinin inkişafında Heydər Əliyevin xidmətləri danılmazdır.

Sahibə Qafarova Rusiyanın Dövlət Dumasında və Federal Şurada Heydər Əliyevin yubileyi ilə bağlı təşkil olunmuş sərgilərə görə Rusiya tərəfinə təşəkkür edərək, görkəmli dövlət xadiminin xatirəsinə göstərilən ehtiramı yüksək qiymətləndirib və bunu iki ölkə arasında dostluq münasibətlərinin təzahürü kimi dəyərləndirib.

Spiker Rusiyaya səfəri çərçivəsində paytaxt Moskvada keçirilən tədbirlərdə çıxış edənlərin Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev haqqında söylədikləri xoş sözlərlə bağlı təəssüratlarını bölüşüb. Qeyd edib ki, əsası Heydər Əliyev dönəmində qoyulmuş Rusiya-Azərbaycan münasibətləri bu gün Azərbaycan və Rusiya liderləri tərəfindən uğurla davam etdirilir və bu münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlib.

Söhbətdə parlamentlərarası əlaqələrin bu günü və inkişaf perspektivləri, dostluq qruplarının fəaliyyəti, qarşılıqlı səfərlərin əhəmiyyəti barədə danışılıb.

Səmimi görüş üçün minnətdarlığını bildirən Rusiya Federal Məclisinin Federasiya Şurası Sədrinin birinci müavini Andrey Yatskin tədbirə dəvətə görə minnətdarlığını bildirərək, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin Rusiyada da həmişə böyük ehtiramla anıldığını, onun SSRİ rəhbərliyində təmsil olunduğu dövrdə Rusiyada gördüyü nəhəng işlərin bu gün də minnətdarlıqla xatırlandığını söyləyib. O, Azərbaycan-Rusiya münasibətlərinə toxunaraq, Heydər Əliyevin bu sahədəki xidmətlərini yüksək dəyərləndirib.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycanla Ukrayna arasında münasibətlərin tarixi çox böyükdür

Milli Məclisin Sədri Sahibə Qafarova Ukrayna Ali Radasının Sədr müavini Olena Kondratiukla görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova, Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Milli Məclisin xüsusi iclasında iştirak etdiyinə görə ona təşəkkürünü ifadə edib.

Görüşdə qeyd olunub ki, ölkələrimiz və xalqlarımız arasında münasibətlərin tarixi çox böyükdür. Xalqlarımız uzun illər dostluq şəraitində yaşayıb və bu gün də bu münasibətlər davam edir. Azərbaycan dost ölkələrlə, o cümlədən Ukrayna ilə əlaqələrin inkişafına həmişə böyük diqqət yetirib və hazırda ölkələrimiz arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir.

Görüşdə ölkələrimizin qanunverici orqanları arasında da münasibətlərin yüksək səviyyədə olduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, Azərbaycan və Ukrayna həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. Azərbaycanla Ukrayna arasında parlamentlərarası dostluq qrupları fəaliyyət göstərir. Xatırladılıb ki, bu ilin fevralında Ukrayna Radasında fəaliyyət göstərən dostluq qrupunun üzvləri Azərbaycanda səfərdə olublar. Apreldə Azərbaycan parlamentində dostluq qrupunun 4 üzvü Ukraynada səfərdə olub.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Heydər Əliyevin əziz xatirəsi Belarusda da böyük ehtiramla yad edilir

Mayın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova parlamentin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan Belarus Respublikası Milli Məclisinin Respublika Şurasının Sədr müavini Valeri Belski və Nümayəndələr Palatasının Sədr müavini Valeri Mitskeviç ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Sahibə Qafarova Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi ilə bağlı Milli Məclisin xüsusi iclasında iştiraklarına və iclasda söylədikləri səmimi sözlərə görə hər iki vitse-spikerə minnətdarlığını bildirib.

Qonaqlar bu əlamətdar iclasa dəvətə və tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürlərini ifadə ediblər. Qeyd olunub ki, dünya miqyaslı siyasi xadim Heydər Əliyevin əziz xatirəsi Belarusda da böyük ehtiramla yad edilir.

Söhbət zamanı Ulu Öndər Heydər Əliyevin mənalı həyat yolu, zəngin dövlətçilik təcrübəsi barədə danışılıb, onun Azərbaycanın müstəqilliyinin qorunması və inkişaf etdirilməsi sahəsində gördüyü işlər xüsusi vurğulanıb.

Bildirilib ki, Ulu Öndər həm keçmiş sovetlər dövründə, həm də müstəqillik illərində Azərbaycana böyük uğurla rəhbərlik edib. Azərbaycan xalqı ölkəsinin müstəqilliyini əbədi və dönməz edən böyük oğlunun xatirəsini həmişə ehtiramla yad edir. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən regional və beynəlxalq layihələr bu gün də öz bəhrəsini verməkdədir. Ulu Öndərin müəyyən etdiyi yol bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi qüdrətinin gücləndirilməsi və ölkəmizin beynəlxalq nüfuzunun artması istiqamətində mühüm addımlar atılır.

Söhbət zamanı ölkələrimizin parlamentlərarası əməkdaşlığının daha da genişləndirilməsinin vacibliyi qeyd olunub, bu baxımdan parlament dostluq qruplarının əhəmiyyəti xüsusi vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Cənubi Afrika Respublikası Milli Assambleyasının Sədri ilə görüşüb

"Mayın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş parlamentin xüsusi iclasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan Cənubi Afrika Respublikası Milli Assambleyasının Sədri Nosivive Mapisa-Nqakula ilə görüşüb".





Sahibə Qafarova Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi ilə bağlı Milli Məclisin xüsusi iclasında iştirakına, iclasda söylədiyi səmimi sözlərə görə Nosivive Mapisa-Nqakulaya təşəkkürünü bildirib. CAR Milli Assambleyasının Sədri bu əlamətdar hadisə ilə bağlı dəvətdən və tədbirin gözəl təşkilindən məmnunluğunu ifadə edib.

Görüşdə Ulu Öndər Heydər Əliyevin mənalı və şərəfli həyat yolundan, misilsiz fəaliyyətindən danışılıb, Ümummilli Liderin müasir Azərbaycan dövlətinin və xalqının tarixində müstəsna xidmətləri qeyd edilib. Bildirilib ki, bu gün Heydər Əliyevin ideya və tövsiyələri Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirilir. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, ərazi bütövlüyünün bərpası, iqtisadi qüdrətinin gücləndirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində əməli addımlar atılır. Söhbətdə ölkələrimizin parlamentlərarası əməkdaşlığının genişləndirilməsi barədə də danışılıb, bu sahədə informasiya və təcrübə mübadiləsi baxımından qarşılıqlı səfərlərin, parlament dostluq qrupları çərçivəsində görüşlərin vacibliyi qeyd olunub.

Milli Məclisin Sədri Milli Assambleyanın Sədri ilə əvvəllər keçirdiyi görüşləri məmnunluqla xatırladaraq, bu cür görüşlərin və qarşılıqlı dialoqun parlamentlərimiz arasında əlaqələrin daha da dərinləşməsinə təkan verdiyini bildirib.

Bildirilib ki, Azərbaycan və Cənubi Afrika Respublikası beynəlxalq təşkilatlar çərçivəsində səmərəli fəaliyyət göstərir, o cümlədən Qoşulmama Hərəkatında aktiv iştirak edirlər. Hazırda Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycanın mühüm təşəbbüsləri xüsusi vurğulanıb. Ölkəmizin təşəbbüsü ilə yaradılan Hərəkatın Parlament Şəbəkəsinin quruma üzv dövlətlər arasında əlaqələrin inkişafına verdiyi töhfələrdən bəhs edilib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan və Macarıstan dost ölkələrdir



Milli Məclisin Sədri Sahibə Qafarova mayın 17-də Macarıstan Milli Assambleyasının Sədr müavini Şandor Lejakla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə qonağa təşəkkürünü bildirib. O, müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin dövlətçiliyimiz və xalqımız qarşısındakı misilsiz xidmətlərdən danışıb.

Görüşdə qeyd olunub ki, Azərbaycan və Macarıstan dost ölkələrdir. Ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi tamam olub. Qarşılıqlı etimada və dəstəyə əsaslanan siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq dinamik inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı, təhsil və digər sahələrdə fəal əməkdaşlıq mövcuddur.

Vurğulanıb ki, ikitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlər və görüşlər müstəsna rol oynayır. Xüsusilə Azərbaycan Prezidenti İlham Əliyevin bu il yanvarın 30-da Macarıstana son rəsmi səfərinin, səfər çərçivəsində imzalanmış Strateji Tərəfdaşlığın Dərinləşdirilməsi haqqında Birgə Bəyannamənin əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə həmçinin Azərbaycanın Avropanın, o cümlədən, Macarıstanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolu qeyd edilib.

Ölkələrimizin beynəlxalq və regional təşkilatlarda sıx əməkdaşlıq etdiyinin və bir-birini dəstəklədiyinin qeyd olunduğu görüşdə həmçinin bildirilib ki, ölkələrimiz arasında yüksəksəviyyəli əlaqələr qanunvericilik orqanları tərəfindən də davam etdirilir. Özünün 2021-ci ildə Macarıstana rəsmi səfərini məmnunluqla xatırlayan Milli Məclisin Sədri Sahibə Qafarova səfər və keçirdiyi görüşlər barədə xoş təəssüratlarını bölüşüb. Qeyd olunub ki, parlamentlərimizin milli nümayəndə heyətləri beynəlxalq parlament təşkilatları çərçivəsində səmərəli əməkdaşlıq edirlər.

Söhbət zamanı Azərbaycan və Macarıstan arasında humanitar, o cümlədən təhsil sahəsində əməkdaşlıq məsələlərindən də danışılıb.

Səfərə dəvətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Macarıstan Milli Assambleyasının Sədr müavini Şandor Lejak, Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasının yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırıb. O, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin qlobal fəaliyyəti, dost ölkələrimiz arasında münasibətlər haqqında müsbət fikirlərini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan və İtaliya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib



Milli Məclisin Sədri Sahibə Qafarova mayın 17-də İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, Senatda Avropa İttifaqı siyasəti Komissiyasının katibi, senator Marko Skurrianın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən Sahibə Qafarova Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Milli Məclisin xüsusi iclasında iştirak etdiklərinə görə onlara təşəkkürünü bildirib.

Görüşdə qeyd olunub ki. dost və tərəfdaş ölkələr olan Azərbaycan və İtaliya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edilib. Münasibətlərin dərinləşməsində dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin mühüm rolu olub.

Söhbət zamanı bildirilib ki, İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Bu istiqamətdə xüsusilə enerji sahəsində əməkdaşlıq vacib rol oynayır. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin digər mühüm istiqamətlərini mədəniyyət, təhsil və digər sahələr təşkil edir.

Milli Məclisin Sədri parlamentlərimiz arasında da əməkdaşlığın inkişafından danışaraq, 2021-ci ildə özünün İtaliyaya rəsmi səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırladıb, səfərin uğurlu nəticələrini qeyd edib. Hazırda hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərdiyi, parlamentlərimizin beynəlxalq parlament təşkilatları çərçivəsində səmərəli əməkdaşlıq etdiyi diqqətə çatdırılıb.

Görüşdə Milli Məclisin Sədri hazırda regionda mövcud olan vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi böyükmiqyaslı bərpa və quruculuq işləri barədə də qarşı tərəfə məlumat verib. Bildirilib ki, İtaliya şirkətləri işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərində fəal iştirak edir.

Spiker Sahibə Qafarova Ermənistanın bölgədə baş verən proseslərlə bağlı həqiqətdən uzaq məlumatlarla beynəlxalq ictimaiyyəti aldatmağa çalışdığını, bu cür yalan məlumatların ifşa olunmasında italiyalı parlamentarilərin də beynəlxalq parlament təşkilatlarında fəaliyyətinin önəmini qeyd edib.

Görüşdə İtaliya parlament nümayəndə heyətinin üzvü Ettore Rosatonun Vətən müharibəsindən dərhal sonra Azərbaycana səfəri, səfər çərçivəsində Ağdama səfər etməsi məmnunluqla xatırlanıb və qeyd olunub ki, onlar Ağdamda gördüklərindən dəhşətə gəliblər.

Marko Skurria Azərbaycana səfərindən və göstərilən yüksəksəviyyəli qonaqpərvərlikdən məmnunluğunu bildirərək, böyük dövlət və siyasi xadim Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Milli Məclisin xüsusi iclasının uğurlu təşkilinə görə təbriklərini çatdırıb. O, ölkəsinin Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu, münasibətlərin hazırkı yüksək səviyyəsindən razılıqlarını bildirib. Senator parlamentlərarası əlaqələrin ölkələrimiz arasında münasibətlərimizin mühüm bir istiqamətini təşkil etdiyini, bu sahədə uğurlu nəticələr əldə edildiyini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan-Misir münasibətləri böyük tarixi köklərə malikdir



Mayın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova parlamentin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan Misir Ərəb Respublikası Parlamentinin Nümayəndələr Palatasının Sədri Hanaf Ali Əl Gebali ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova bu əlamətdar hadisə ilə bağlı xüsusi iclasda iştirakına, çıxışında söylədiyi səmimi sözlərə görə qonağa təşəkkürünü ifadə edib. O qeyd edib ki, Heydər Əliyev o şəxsiyyətlərdəndir ki, onun əməlləri, xalqı qarşısında xidmətləri konkret zaman sərhədlərinə sığmır. Heydər Əliyevin ideyaları daim yaşayır. O, xalqımızın yaddaşında, milli şüurumuzda əbədilik hüququ qazanmışdır. Sahibə Qafarova Ulu Öndər Heydər Əliyevin Misirlə əlaqələrin inkişafına önəm verdiyini, ölkələrimiz arasında dostluq münasibətlərinin bu gün də uğurla davam etdiyini söyləyib. Milli Məclisin Sədri Hanaf Ali Əl Gebalinin xüsusi iclasdakı çıxışının dərin təəssürat yaratdığını söyləyib.

Milli Məclisin Sədri deyib ki, Azərbaycan və Misir dost ölkələrdir. Bizim xalqlarımızı bir çox amillər, görünməz bağlar birləşdirir. Bunlar ortaq mənəvi dəyərlərimiz, İslam dinimiz, ailə dəyərlərimizdir. Ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini deyən Sahibə Qafarova Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana səfərinin əlaqələrimizin inkişafına ciddi təkan verdiyini vurğulayıb.

Spiker parlamentlərimiz arasında da əlaqələrin aktiv şəkildə inkişaf etdiyini bildirib. O, cari ildə özünün Misirə səfəri, keçirilən görüşlərlə bağlı xoş təəssüratlarını bölüşərək qeyd edib ki, bu cür qarşılıqlı təmaslar münasibətlərin daha da dərinləşməsinə xidmət edir.

Görüşdə Azərbaycanın və Misirin Qoşulmama Hərəkatı və təşkilatın Parlament Şəbəkəsi çərçivəsində səmərəli fəaliyyəti barədə söhbət açılıb. Bildirilib ki, Azərbaycan quruma sədrliyi dövründə üzv ölkələr arasında əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfələr verib.

Misir Nümayəndələr Palatasının Sədri Hanaf Ali Əl Gebali görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın tərəqqisi naminə gördüyü işləri yüksək qiymətləndirib. Azərbaycanı dost ölkə hesab etdiklərini və münasibətlərimizin böyük tarixi köklərə malik olduğunu bildirən Hanaf Ali Əl Gebali qeyd edib ki, Azərbaycan üçün çox çətin vaxtlarda məhz Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan bütün sınaqlardan uğurla çıxaraq inkişaf yoluna qədəm qoyub və Prezident İlham Əliyev bu siyasəti müvəffəqiyyətlə davam etdirir.

Nümayəndələr Palatasının Sədri ölkəmizdə gördükləri yüksəksəviyyəli qonaqpərvərliyin, xalqımızın yüksək mədəniyyətinin onlarda xoş təəssüratlar yaratdığını deyib.

Söhbətdə ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib, beynəlxalq səviyyədə qarşılıqlı faydalı əməkdaşlığın inkişafı məsələlərinə toxunulub.

***"Azərbaycan"***

# Slovakiya ilə həm ikitərəfli formatda, həm də beynəlxalq qurumlarda səmərəli əməkdaşlıq mövcuddur



Mayın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunan xüsusi iclasda iştirak üçün Azərbaycanda səfərdə olan Slovakiya Respublikası Milli Şurasının Sədri Boris Kollar ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında misilsiz xidmətləri barədə danışıb.

Görüşdə bildirilib ki, Azərbaycanla Slovakiya arasında fəal dialoq mövcuddur. Ölkələrimiz arasında həm ikitərəfli formatda, həm də beynəlxalq qurumlarda səmərəli əlaqələr mövcuddur.

Görüşdə həmçinin, Azərbaycanın enerji siyasəti haqqında da danışılaraq, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı rol vurğulanıb. Qeyd edilib ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşan layihələr iştirakçı dövlətlərin inkişafına töhfə verməklə yanaşı, Avropaya enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi baxımından önəmlidir.

Görüşdə Milli Məclisin Sədri Slovakiyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü tam və qəti şəkildə dəstəklədiyini bildirərək, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işləri barədə məlumat verib. Qeyd olunub ki, Slovakiya şirkətləri də bu işlərdə iştirak etməkdə maraqlıdırlar.

Slovakiya Milli Şurasının Sədri Boris Kollar Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı Milli Məclisdə təşkil olunmuş yubiley tədbirində iştirakından məmnunluğunu ifadə edib. O, Heydər Əliyevin xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərini, Azərbaycanın hərtərəfli inkişafı üçün gördüyü işləri, ölkənin beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsi istiqamətində səylərini yüksək qiymətləndirib.

Söhbətdə ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərin rolu vurğulanıb, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin qanunverici orqanlar arasında əməkdaşlığın möhkəmləndirilməsində əhəmiyyətindən danışılıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Slovakiyaya rəsmi səfərini, orada keçirdiyi görüşləri xatırladıb. Slovakiya Milli Şurasının Sədri Boris Kollar ötən il Azərbaycana səfərindən, Sahibə Qafarova ilə görüşündən xoş təəssüratlarını bildirib, həmin səfər çərçivəsində işğaldan azad edilmiş Füzuli və Şuşaya səfərindən bəhs edib.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlərlə də bağlı fikirlərini bölüşüblər.

***"Azərbaycan"***

# Parlamentdə görüşlər



**Mayın 17-də Azərbaycan parlamentinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunan xüsusi iclasında iştirak etmiş xarici ölkələrin parlament nümayəndə heyətləri ilə Milli Məclisdə görüşlər keçirilib.**







Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Macarıstan Milli Assambleyasının nümayəndə heyəti ilə görüşündə qonaqları salamlayaraq, Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilən xüsusi iclasında iştirak etdiklərinə görə onlara təşəkkürünü bildirib.

Milli Məclisin Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əli Hüseynli Macarıstan Milli Assambleyası sədrinin müavini Şandor Lejakın başçılıq etdiyi nümayəndə heyətinə Ulu Öndərin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə dövlətçiliyin və müstəqilliyin möhkəmləndirilməsi, respublikamızın tərəqqisinin təmin olunması kimi istiqamətlərdə gördüyü misilsiz işlərdən bəhs edib.

Şandor Lejak Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən parlamentin xüsusi iclasında iştirak etməkdən məmnunluğunu bildirib, göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edib.

Görüşdə Milli Məclisin Macarıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Nəsib Məhəməliyev, Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə və digər rəsmi şəxslər iştirak ediblər.

❖ ❖ ❖

Sonra Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli Venesuela parlament nümayəndə heyəti ilə görüşdə onların Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilən xüsusi iclasında iştirakını yüksək qiymətləndirib.

Müasir dövrdə müstəqilliyin və suverenliyin qorunmasının çətinliklərindən söz açan birinci vitse-spiker milli dövlətçiliyə qarşı təhdidlərdə xalqın və dövlətin birliyinin əhəmiyyətini qeyd edib. Bu baxımdan xalqımızın müdrikliyini vurğulayan Əli Hüseynli Azərbaycanın məhz Heydər Əliyev ideyalarına və siyasətinə sadiq qalaraq inkişafının və qüdrətinin indiki yüksək səviyyəsinə çatdığını bildirib.

Venesuela parlamentinin İnzibati və xidmətlər daimi komissiyasının sədri Pedro Karreno Milli Məclisin Heydər Əliyevin 100 illiyinə həsr edilən xüsusi iclasında iştirak etməkdən şərəf duyduqlarını deyib və bu tədbirə dəvətə görə təşəkkürünü bildirib.

Qonaq Venesuelanın Azərbaycanla münasibətləri inkişaf etdirməkdə maraqlı olmasından danışaraq əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı fikirlərini bölüşüb.

❖ ❖ ❖

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Venesuela heyəti ilə görüşdə Ulu Öndərin siyasətinin cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə ölkəmizin daha da qüvvətlənməsindən və inkişaf etməsindən danışıb. Tahir Mirkişili iqtisadi sahədə əməkdaşlığa toxunub, Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlərdən danışıb.

Venesuela parlamentinin İnzibati və xidmətlər daimi komissiyasının sədri Pedro Karreno və nümayəndə heyətinin üzvləri dövlətlərimiz arasında münasibətlərin gələcək inkişafı üçün qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulayıblar.

❖ ❖ ❖

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Venesuela heyəti ilə görüşdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki və dövlətçiliyinin möhkəmləndirilməsindəki misilsiz xidmətlərindən bəhs edib.

Səməd Seyidov ölkələrimiz arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etməsindən söz açaraq, ölkələrimizin xalqlarımızın mənafeyinə uyğun müstəqil siyasət aparması, Qoşulmama Hərəkatının beynəlxalq aləmdə getdikcə artan rolu, bu hərəkat çərçivəsində əməkdaşlığın gücləndirilməsi məsələləri barədə fikirlərini bölüşüb.

Venesueladan olan deputatlar Pedro Karreno və Xesus Faria Ulu Öndərin yubileyinə həsr olunmuş xüsusi iclasın yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə təşəkkür ediblər, keçirilən ikitərəfli görüşlərin hər iki parlament arasında dostluq və əməkdaşlıq imkanlarının daha da yaxşılaşdırılmasına xidmət edəcəyinə inamlarını bildiriblər.

❖ ❖ ❖

Azərbaycan-Venesuela parlamentlərarası əlaqələr üzrə işçi qrupunun Venesuela nümayəndə heyəti ilə görüşündə qonaqları salamlayan qrupun rəhbəri Tamam Cəfərova öz növbəsində Milli Məclisin Ulu Öndərin yubileyinə həsr olunmuş xüsusi iclasında iştirakına və nümayəndə heyətinin rəhbəri Pedro Karrenonun gözəl nitqinə görə təşəkkür edib. Tamam Cəfərova Ümummilli Liderin müstəqilliyimizin qorunması və inkişaf etdirilməsi sahəsində gördüyü işlərdən danışıb. O, Azərbaycan və Venesuela arasında müxtəlif platformalarda, xüsusən də Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, parlamentlərarası dostluq qrupları çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Milli Məclisin Venesuela ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Sadiq Qurbanov, Etibar Əliyev, Müşfiq Məmmədli, İltizam Yusifov, Rauf Əliyev ölkələrimiz arasında həm parlamentlər səviyyəsində, həm də digər istiqamətlərdə əməkdaşlığı genişləndirmək barədə fikirlərini səsləndiriblər.

Venesuela parlamentinin İnzibati və xidmətlər daimi komissiyasının sədri Pedro Karreno və İqtisadi və maliyyə daimi komissiyasının sədri Xesus Faria səfərə dəvətə görə təşəkkür ediblər. Onlar dövlət başçılarımızın siyasi iradələri ilə inkişaf edən dövlətlərarası və parlamentlərarası əlaqələrin xalqlarımızın və dövlətlərimizin maraqlarına uyğun olduğunu vurğulayıblar.

Görüşdə deputatlar Arzu Nağıyev, Naqif Həmzəyev, Pərvin Kərimzadə, Venesuela Bolivar Respublikasının ölkəmizdəki səfiri Kristofer Martinez Berroteran və digər rəsmi şəxslər iştirak ediblər.

❖ ❖ ❖

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov senator Marko Skurrianın başçılıq etdiyi İtaliya parlament nümayəndə heyəti ilə görüşdə bildirib ki, Ümummilli Lider Heydər Əliyevin adı həyatını xalqının yolunda fədakar xidmətə həsr etmiş dahi şəxsiyyət kimi Azərbaycan tarixinə əbədi həkk olunub.

Səməd Seyidov qeyd edib ki, Avropa İttifaqının önəmli dövləti olan İtaliya ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan və İtaliya arasında əlaqələrin inkişaf etdirilməsinin hər iki ölkənin maraqlarına cavab verdiyini diqqətə çatdıran Səməd Seyidov bu baxımdan parlamentlərarası əlaqələrin, parlament dostluq qruplarının fəaliyyətinin əhəmiyyətini vurğulayıb.

İtaliya Senatının Azərbaycan parlamenti ilə dostluq qrupunun rəhbəri Marko Skurria Ulu Öndərin yubiley tədbirlərində iştirak etməkdən məmnunluqlarını dilə gətirib, yüksəksəviyyəli qonaqpərvərliyə görə təşəkkür edib. Senator ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq müstəvisində inkişaf etməsindən danışıb, deputatlarımızın beynəlxalq parlament təşkilatlarında da uğurla əməkdaşlığını vurğulayıb.

Sonra görüş parlamentlərarası əlaqələrin perspektivləri, həmçinin tərəfləri maraqlandıran digər məsələlərin müzakirəsi ilə davam etdirilib.

Görüşdə Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov, İtaliya Senatının senatoru Culiomaria Terzi, Deputatlar Palatasının deputatı Ettore Rozato və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

Mayın 17-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin növbəti iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Ziyafət Əsgərov iclasın gündəliyinə üç məsələnin daxil edildiyini deyib.

Ziyafət Əsgərov gündəliyin birinci məsələsini - "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini təqdim edib. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş qanun layihəsində kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərində həqiqi hərbi xidmətə çağırılmış və ya könüllü daxil olmuş şəxslərin hərbi qeydiyyatdan çıxarılması qaydasının təkmilləşdirilməsi, habelə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin ehtiyatını təşkil edən dairənin dəqiqləşdirilməsi nəzərdə tutulur. Məsələ ətrafında aparılan müzakirədə çıxış edən deputatlar Arzu Nağıyev, Aydın Mirzəzadə təklif olunan dəyişiklikləri müsbət qiymətləndiriblər.

Sonra komitə sədri gündəliyin ikinci məsələsi olan "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini təqdim edib. Ziyafət Əsgərov qeyd edib ki, qanun layihəsində hərbi qeydiyyat anlayışının dəqiqləşdirilməsi, müvafiq icra hakimiyyəti orqanında müddətli həqiqi hərbi xidmətdən buraxılmış, həmçinin müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən buraxılıb həmin orqanın ehtiyatına keçirilməmiş və ya hərbi qeydiyyatından çıxarılmış hərbi vəzifəlilərin hərbi qeydiyyat qaydasının təkmilləşdirilməsi nəzərdə tutulur. Layihədə həmçinin texniki xarakterli dəyişikliklər var.

Hər iki qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub. Daha sonra Komitə sədri Ziyafət Əsgərov "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı da məlumat verib. Qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

İclasda deputatlar Bəxtiyar Sadıqov, Elman Məmmədov, Aqil Abbas, Erkin Qədirli, Nurlan Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Xorvatiyanın parlament nümayəndə heyəti Ağdamda səfərdə olub













Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün ölkəmizdə rəsmi səfərdə olan Xorvatiya Parlamentinin Sədr müavini Davorko Vidoviçin rəhbərliyi ilə Xorvatiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun nümayəndə heyəti mayın 17-də Ağdamda erməni vandalizminin izləri, həmçinin aparılan bərpa-quruculuq işləri ilə tanış olub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Ağdamda qonaqlar əvvəlcə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin Qərargahında olublar.

Səfər zamanı erməni vəhşiliyinə məruz qalan tikililər barədə məlumat verilib. Bildirilib ki, erməni vandalizmi təkcə yaşayış yerlərindən deyil, Azərbaycanın tarixi abidələrindən də yan keçməyib.

Nümayəndə heyətinin üzvlərinə Ağdam şəhərinin baş planı çərçivəsində həyata keçirilən quruculuq işləri barədə ətraflı məlumat verilib. Əminliklə bildirilib ki, "Qafqazın Xirosiması" kimi tanınan Ağdam Azərbaycan Prezidentinin təşəbbüsü ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək, doğma yurdlarından 30 il ayrı düşmüş insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək.

Səfər iştirakçıları erməni vəhşiliyi nəticəsində yerləyeksan edilən Ağdam şəhərinin dağıntıları ilə də tanış olub, Dram teatrının salamat qalan divarına baxıblar.

Ağdam Cümə məscidinə ziyarət zamanı vurğulanıb ki, digər tarixi abidələrimiz kimi, 1868-ci ilin yadigarı olan bu məscid də işğal dövründə Ermənistan silahlı qüvvələri tərəfindən talan edilib və yandırılıb. Erməni işğalçıları məscidin minarələrindən müşahidə məqsədilə istifadə etdiklərinə görə tarixi abidə tam dağıdılmayıb. Buna baxmayaraq, erməni vandalları bütün müqəddəs məkanlarımız kimi, bu məscidin də ibadət zalından heyvan saxlamaq üçün istifadə ediblər.

Sonra qonaqlara Ağdam Sənaye Parkında görülən işlərlə bağlı məlumat verilib. Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 28 may tarixli Fərmanı ilə yaradılan Sənaye Parkında minə yaxın iş yerinin yaradılması nəzərdə tutulur. Burada yaradılan müəssisələr yerli istehsalın inkişafına təkan verməklə, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsinə, Qarabağın dirçəlişinə və bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcək.

Səfər çərçivəsində nümayəndə heyətini Milli Məclisin Azərbaycan-Xorvatiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, deputat Könül Nurullayeva müşayiət edib.

***"Azərbaycan"***

# Unutmağa haqqımız yoxdur!

## İflasa uğramışların zorən səmimi etirafları

**"Hakimiyyətdə olanlar ancaq şəxsi mənafeyi düşünürdülər, talançılıq, soyğunçuluq, özbaşınalıq, anarxiya, xaos, torpaqlar əldən gedirdi, ovaxtkı AXC-Müsavat hakimiyyəti isə Ermənistana yanacaq satırdı. Görün bu insanlar öz xalqına nə dərəcədə nifrətlə yanaşmışlar ki, bu ağır günlərdə öz ciblərini doldurmaq üçün bu çirkin əməllərə də əl atmışlar. Hakimiyyətdə qalmaq üçün hətta vətəndaş müharibəsinə də rəvac verdilər. Torpaqlar əldən gedirdi, Şuşa 1992-ci ilin may ayında məhz milli xəyanət və satqınlıq nəticəsində düşmənə təhvil verilmişdir".**

**İlham ƏLİYEV**

**İnsanın yaddaşı korşala bilir, zaman keçdikcə nəyisə yaddan çıxarır.**

**Tarix isə heç nəyi unutmur!**

Əksinə, unutqanlığı cəzalandırır.

Baş verən faciələrin bir daha təkrarlanmamasından ötrü yaddaşımızı daim "iti" saxlamalıyıq.

Yaxın tarixi, bir nəslin ömür müddətində baş verənləri isə kimsənin unutmağa haqqı yoxdur!

❖ ❖ ❖

Hər dəfə may gələndə bayramlarla zəngin olan bu ayda AXC-Müsavat cütlüyünün məşhur "1993-cü ilin 25 may konfransı" da yada düşür.

**Hakimiyyət dövrü "quş yuxusu" qədər çəkən bu cütlüyün özünüifşa konfransı.**

**Özündən müştəbeh "bəy"lərin üzqaralığının göstəricisi sayılan konfransı.**

*AXC-Müsavat cütlüyü hakimiyyətə gəlmək eşqinə düşdükləri gündən 1993-cü ildə vəzifələrini "donduraraq" aradan çıxdıqları anadək təkcə bu "hesab konfransı"nda səmimi oldular.*

*Hər şeyi düz danışdılar, olanları söylədilər.*

**Öz naşılıqlarını, səriştəsizliklərini, bacarıqsızlıqlarını faktlarla açıqladılar.**

**Dövləti idarə edə bilmədiklərini, tamahlarının quluna çevrildiklərini misallarla söylədilər.**

**Komanda daxilində bir-birilərini aldatdıqlarını, hər şeyi şəxsi maraqlarına qurban verdiklərini etiraf etdilər.**

Ən əsası onlara inanan insanlara xəyanət etdiklərini utanmadan dillərinə gətirdilər.

Ona görə yox ki, peşman olmuşdular, daha düzgün və təmiz, milli maraqlara uyğun işləyəcəklərini bildirmək istəyirdilər...

*Yox, günahı bir-birilərinin üstünə yıxaraq hərə özünü suya çəkməyə, "təmiz" göstərməyə çalışırdı.*

**Səmimiyyətləri də peşmanlıqdan yox, etdikləri qəbahət, günah, nöqsan və xəyanətləri etiraf etmək məcburiyyətində qaldıqlarından irəli gəlirdi.**

❖ ❖ ❖

1993-cü ilin may konfransında "baş rolda" Əli Kərimli oynayırdı.

Ona görə yox ki, o, "məsum və günahsız", süddən çıxmış qaşıq kimi tərtəmiz idi...

Sadəcə, əlinə yaxşı girəvə düşmüşdü.

**Ömrü boyu ona etibar edənləri, həyan duranları, vəzifəyə irəli çəkənləri, "düzlüyünə" və "təmizliyinə" inananları aldadaraq atan, öz məqsədləri üçün istifadə edərək niyyətinə çatanda satan, pul və vəzifə üçün vətəninə daim xəyanət edən bu ünsür rəqiblərini sıradan çıxarmaq üçün əlinə düşən imkandan məharətlə bəhrələnirdi.**

*Sevincdən özünü o qədər itirmişdi ki, irəli sürdüyü ittihamların, cinayət tərkibli faktların üzvü olduğu iqtidara ünvanlanmasının fərqinə belə varmırdı.*

Heç kəsə sərbəst danışmağa imkan vermirdi ki, birdən müəyyən olunmuş mövzudan kənara çıxar, dövlət katibinin də "xidmət"ləri xatırlanardı.

**May konfransı əsl tamaşa, baş rolun ifaçısı isə məkrli Əli Kərimli və bir də hamı tərəfindən aldadılan çarəsiz və zavallı Ə.Elçibəy idi.**

**May konfransındakı ittihamların bir neçəsinə nəzər salaq:**

"Əli Kərimov:

*- Bu gün Azərbaycanın maddi sərvətləri qaçaqmalçılıq yolu ilə talan olunur. Respublikanın on minlərlə iribuynuzlu mal-qarası, minlərlə texnikası və digər maddi sərvətləri sərhəddən qaçaqmalçılıq yolu ilə keçirilir. Bu, respublikanın iqtisadiyyatına sarsıdıcı zərbə vurur".*

Əvvəla, ittihamdakı faktlar kimə ünvanlanıb, qaçaqmalçılıqla kimlər məşğul olur, respublikanın iqtisadiyyatına sarsıdıcı zərbələri endirənlər kimlərdir?

Elə özün qarışıq sizin komanda deyilmi?

Mal-qaranı, maddi sərvətləri kim qorumalıdır, onlar sərhəddən keçiriləndə qarşısını kim almalıdır?

Sadə xalq, yoxsa ölkəyə rəhbərlik edənlər?!

Əli Kərimlinin ritorik suallarına zavallı prezident Elçibəy salondakı vəzifəyə qoyduğu, etibar etdiyi hüquq-mühafizə orqanları rəhbərliyinə ünvanladığı cavaba bəlli müraciəti ilə aydınlıq gətirdi.

Əslində isə özünə verməli olduğu sualı əlinin altında işləyənlərə ünvanlamaqla yerində olmayan dövlət başçısı olduğunu bir daha sübut etdi:

*"Ə.Elçibəy:*

*- Bir sualım var. Respublikada talançılıq baş alıb gedir. Nizami demişkən, əgər oğurlanan maldan gözətçinin xəbəri yoxdursa, demək, gözətçinin orada əli var. Burada milis orqanıdır, prokuror orqanıdır və bir də məhkəmə orqanıdır. Burada oturan orqanların əli həmin cinayətdə var. Bunu nə ilə izah edərdiniz? Bax hamımız burdayıq. Demirik hüquqi dövlət qururuq... Onda bu ölkəni niyə dağıdırsan? Başa düşmürəm... Xarici iqtisadi əlaqələr pozulur, benzin, neft, taxıl respublikadan dağıdılır. Azərbaycanın rayonlarında benzin tapılmır. Amma Ermənistan Azərbaycan neftini aparır, özü də tonla. Bunu adi vətəndaş da bilir. Xalq deyir ki, kaş canımız qurtaraydı bu Xalq Cəbhəsinin əlindən. Heç kim, heç birimiz belə axıra qədər gedə bilməyəcəyik. Bunu birdəfəlik hamınız yaxşı bilin. Bu xalq əgər azadlıq və demokratiya uğrunda mübarizə aparırsa, bu xalq əgər böyük imperiyadan canını qurtara bilirsə, gələcəkdə aramızda olan bu adamların canı xalqın əlindən qurtarmayacaq. Prokurorluq da, məhkəmə də, xahiş edirəm, buna cavab versin: bu gün bu respublika niyə dağılır?.."*

**Əgər prezident bilmirsə ki, respublika niyə dağılır, onda o, nə ilə məşğuldur, işinin adı nədir?**

**Yox, bilib qarşısını almırsa, yaxud ala bilmirsə, onda özü nədir? Müqəvva?**

Son konfransın məzhəkəsi təkcə bununla bitmir:

- Bu qədər müzakirədən;
- Bu qədər çək-çevirdən;
- Bu qədər "araşdırma"dan;
- Ən nəhayət, bu qədər sorğu-sualdan sonra bir nəfərə belə "qaşın üstə gözün var" - deyilmir.

*Bir nəfər vəzifədən kənarlaşdırılmır.*

*Bir nəfər barədə araşdırmaya başlanılmır.*

*Bir nəfər barədə belə cinayət işinin açılması haqda göstəriş verilmir.*

**Necə deyərlər, yedik, dağıtdıq, xəyanət etdik, yığışıb danışdıq və dağılışdıq!**

**Sabahdan yenə əvvəlki qaydada "işləyəcəyik"!**

Baş prokuror İxtiyar Şirinov isə aparılan yoxlamaların "uğurlu" nəticələrindən, aşkara çıxarılan qanunsuzluqlardan danışır:

*"İxtiyar Şirinov:*

*- Ümumi nəzarət yoxlamaları zamanı "Azərneftyağ" (müəssisəyə Rəsul Quliyev rəhbərlik edirdi - red.) zavoduna məxsus olan 2,5 milyon ABŞ dollarının qanunsuz olaraq israf edilməsi, 18 milyon dollara yaxın vəsaitin Türkiyənin "Dənizçilik" bankında saxlanması, Yasamal Rayon Ticarət İdarəsinin 1,5 milyard rublu qanunsuz olaraq Moskvadakı "Bank-Servis" kommersiya birliyinin hesabına keçirməsi, Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunda külli miqdarda dövlət əmlakının israf edilməsi, "Xəzər" firmasının Bakı Gömrük İdarəsinin əməkdaşları ilə cinayət əlaqəsinə girərək 27,5 ton bürünc və 100 tondan artıq mis çıxdaşını xaricə göndərməsi, "Mərzili" kiçik müəssisəsinin 30 ton əlvan metalı qanunsuz yolla Türkiyəyə keçirməsi, "Elgün" assosiasiyasının 157 tondan artıq alüminiumu İrana ucuz qiymətə satması nəticəsində dövlətə 100 min Amerika dollarından artıq ziyan vurması, Şamaxıda 3 nömrəli üzüm emalı zavodunda 29 milyon rublun mənimsənilməsi, Bakı şəhərində dövlət məmurlarının saxta sənədlərlə banklardan 245 milyon rublu çıxarması və digər cinayətlər açılmışdır. Yoxlamalar zamanı kənd təsərrüfatı və ərzaq, ticarət, su və meliorasiya, rabitə nazirlikləri sistemində, Dövlət Neft Şirkətində, Dəmiryol İdarəsinin idarə və təşkilatlarında böyük qanunsuzluqlar aşkar edilmişdir".*

Bütün dağıntılar barədə konkret faktlar əsasında danışan baş prokuror nədənsə dövlətə başçılıq edən Ə.Elçibəyin sualına susmaqla "cavab verir":

*"Ə.Elçibəy:*

*- Sən söz verirsən ki, Azərbaycanın nefti gedib Ermənistanın əlinə çatmayacaq? Azərbaycanda rayonlarda benzin yoxdur ki, avtobuslar işləsin. Camaat ata-anamızın qəbrinə söyür. Bu cinayətkarlar axı kimdir?.."*

- ...

Yəqin ki, əsl həqiqəti söyləməkdə, cinayətkarların həmin zalda oturanların sırasında olduğunu deməkdə çətinlik çəkir.

**Əgər komandanın kapitanı rüşvət almağı cinayət hesab etmirsə, vəzifə verdiklərinə rüşvət və korrupsiya ilə məşğul olmağı yasaqlamırsa, başqa necə olmalıdır?**

Və Azərbaycanın "atalar sözü" sırasına düşən, AXC-Müsavat iqtidarının ən "məşhur", "həmişəyaşar" lətifələrindən biri məhz bu məqamda Elçibəy tərəfindən söylənilir:

**"Rüşvət alanda milyonlarla dollar alırsınız, alırsan, heç olmasa yüz minlərlə al, beş manat al, insafla al".**

*Əqidəniz budurmu?*

*Müstəqil dövlətin qurulmasını buna görəmi istəyirdiniz?*

*Hakimiyyətə buna görə yiyələnmişdiniz?*

**Xalq isə bütün bunlara görə sizə nifrət etdi və arxa çevirdi!**

❖ ❖ ❖

AXC-Müsavat cütlüyü xəyanət və səriştəsizliyi ilə Azərbaycanı kövrək müstəqilliyini itirmə, bir dövlət kimi məhvolma həddinə çatdırdı.

Böyük xəyanət - Şuşanın düşmənə təslim edilməsi öz məntiqi davamı ilə "kiçik xəyanət"lə - ölkənin baş prokurorunun prezident Elçibəyin həbsinə sanksiya verməsi ilə yekunlaşdı.

**Düşmən tanklarını, hərbi maşınlarını hərəkətə gətirən yanacaq Bakıdan göndərilirdi - "bəy"lərin cibinə girəcək pul əvəzində.**

"Kələklə gələn, küləklə gedər - demişlər".

Xalqı aldatma yolu ilə iqtidara gələnlərin qısa müddətdə yığdıqları burunlarından gəldi!

Təkcə törətdikləri cinayət əməllərinə görə həbsxanalara düşmədilər...

Həm də xalqın gözündən düşdülər, urvatsız oldular!

İqtidarda olduqları dövr xalqın ağzında müxtəlif lətifələrlə "tarix"ə yazıldı!

*Əgər Ulu Öndər Heydər Əliyev onların yalvarışı və ən əsası xalqın çağırışı ilə geri dönməsəydi, bəlkə də S.Hüseynovun "Azadlıq" meydanında qurmağa vəd etdiyi dar ağaclarında yellənəcəkdilər.*

Özləri nə olsalar da, bəxtləri var imiş...

**Ulu Öndər Heydər Əliyev anarxiya, xaos və fəlakətə çatdırdıqları Azərbaycanı xilas etdi, Prezident İlham Əliyev isə xəyanətkarlıqla düşmənə verdikləri Şuşanı geri qaytardı!**

O dövrdə yaşayan insanlar da, qocaman tarix də bütün bunları bilir və yaddaşında saxlayır!

**Bəxtiyar SADIQOV**

# "Caspian Agro 2023": "Kənd təsərrüfatının inkişafında Heydər Əliyevin uğurlu aqrar siyasəti" mövzusunda panel sessiyası keçirilib




"Bakı-Ekspo" Mərkəzində 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı (Caspian Agro 2023) sərgisi çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin tərəfdaşlığı ilə "Aqrar İnnovasiyalar Forumu" adı altında kənd təsərrüfatının müxtəlif sahələrini əhatə edən panel müzakirələri keçirilib.

AZƏRTAC xəbər verir ki, "Kənd təsərrüfatının inkişafında Heydər Əliyevin uğurlu aqrar siyasəti" mövzusuna həsr olunmuş ilk panel sessiyasında çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulması, müstəqilliyinin qorunub saxlanılması istiqamətində fəaliyyətindən bəhs edib.

Nazir bildirib ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da ərzaq təhlükəsizliyinin təmin edilməsi ən vacib məsələlərdəndir: "Ölkədə aqrar sahənin inkişafı məqsədilə dövlət tərəfindən sistemli dəstək tədbirləri davam etdirilir. Kənd təsərrüfatının inkişafında yeni ixtiralar, innovativ yeniliklər mühüm rol oynayır. Ölkəmizdə aqrar sahədə müasir texnika və texnologiyaların tətbiqi məhsuldarlığın artırılmasında əhəmiyyətli rola malikdir. İqlim dəyişikliyi və qlobal istiləşmə fonunda torpaq və su resurslarından səmərəli istifadənin təşkili aqrar sektorda innovasiya və texnologiyaların daha geniş istifadəsini zəruri edir. Bu gün dünyada mövcud olan təcrübələrin mübadiləsi, o cümlədən aqrar texnologiya transferi son dərəcə vacibdir".

Nazir qeyd edib ki, kənd təsərrüfatına həsr olunmuş sərgilər yeni texnologiyalarla tanışlığa və praktikada tətbiqə imkan verir.

Tədbirdə çıxış edən Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Aqrar Məşvərət Şurasının sədri Abdolbari Gozal, Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov aqrar sahədə innovasiya və yeni texnologiyaların tətbiqi istiqamətində görülən tədbirlərə toxunublar.

Panel sessiyalarda ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar innovasiyaların rolu, innovativ həllərin tətbiqi ilə məhsuldarlığın artırılması, torpaq və su resurslarından daha səmərəli istifadə olunması istiqamətində müzakirələr aparılıb.

Daha sonra sərgi çərçivəsində "Kənd təsərrüfatında sudan səmərəli və davamlı istifadə üçün innovativ həllər", "Orqanik kənd təsərrüfatı: trendlər və inkişaf perspektivləri. Orqanik Naxçıvan brendinin təqdimatı", "Bitkiçilikdə məhsuldarlığı şərtləndirən aqrotexniki həllər və innovativ yanaşmalar" mövzularında panel sessiyalar keçirilib.

Sessiyalar zamanı ölkədə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər müzakirə olunub, bu sahədə tətbiq edilən innovativ həllər və nəticələr barədə informasiya-məsləhət xarakterli məlumatlar bölüşülüb.

Panel sessiyalarda mövzular ətrafında fikir mübadiləsi aparılıb və iştirakçıların sualları cavablandırılıb.

# Azərbaycanın şərtləri sülhün yeganə təminatıdır

## Növbəti Brüssel görüşü də göstərdi ki, İrəvanın bu şərtlərə əməl etməkdən başqa yolu yoxdur

Vətən müharibəsindən sonra Azərbaycan və Hayastan arasında münasibətlərin normallaşdırılması üçün keçirilən əvvəlki görüşlərdə olduğu kimi, mayın 14-də Brüsseldə baş tutan növbəti görüşdə də Bakının beynəlxalq hüququn norma və prinsiplərinə uyğun irəli sürdüyü 5 prinsip məqbul hesab edildi. Cənubi Qafqazda sülhün məhz bu prinsiplər əsasında mümkünlüyü bir daha danışıqlar masası arxasında etiraf olundu.

### Avropa İttifaqı Qarabağı Azərbaycanın daxili ərazisi kimi tanıyır

Azərbaycanın lehinə yekunlaşan son Brüssel görüşündə iki il yarımdır ki, bəzi xarici havadarlarına güvənərək sülh sazişini bağlamaqdan müxtəlif məkr və planlar, eləcə də ölkəmizə qarşı təxribatlar törətmək vasitəsilə yayınan Hayastanın Azərbaycanın irəli sürdüyü təklifləri qəbul etməkdən başqa çarəsi qalmadı.

Hayastan əvvəlki Praqa və Soçi görüşlərində olduğu kimi, Brüsseldə keçirilən növbəti üçtərəfli görüşdə də Azərbaycanla Ermənistan arasında sərhədlərin - 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmalı olduğunu rəsmən qəbul etdi, bir sözlə, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdı.

Ümumiyyətlə, Azərbaycanın bölgədəki reallıqlara əsaslanaraq sülhlə bağlı diktə etdiyi şərtlərlə razılaşmaqdan başqa çıxış yolu olmayan Hayastan sonuncu görüşdə bir sıra məsələlərdə Azərbaycanla razılığa gəlməyə məcbur oldu.

Mayın 14-də baş tutan görüşün yekunları ilə bağlı mətbuata açıqlamasında Aİ Şurası Prezidenti Şarl Mişel məlumat verdi ki, danışıqlarda liderlər sərhədlərin delimitasiyası ilə bağlı atılacaq növbəti addımları müzakirə etdilər. Tərəflərin regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində aydın irəliləyişə nail olduğunu, xüsusilə də Naxçıvana və əks istiqamətdə dəmir yolu əlaqəsinin bərpasına dair liderlər arasında müsbət dialoq baş tutduğunu söyləyən Aİ lideri, "Biz keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin hüquq və təhlükəsizliyi məsələsinə dair fikir mübadiləmizi davam etdirdik", - deyə bildirdi.

Beləliklə, Ş.Mişel "keçmiş Dağlıq Qarabağ" ifadəsini işlətməklə, Aİ-nin Qarabağı Azərbaycanın daxili ərazisi kimi tanıdığını açıq şəkildə ortaya qoydu.

### Erməni sakinlər cəmiyyətimizə inteqrasiya olunacaqlar

Son Brüssel görüşünün yekunları ilə bağlı mətbuata açıqlamasında Aİ Şurası Prezidenti Azərbaycanı beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq yolu ilə Qarabağda yaşayan erməni sakinlərin hüquq və təhlükəsizliyini təmin etmək üçün müsbət gündəliyin işlənib hazırlanmasında iştirak etməyə təşviq etdiyini də söylədi. Lakin rəsmi Bakı buna qədər də Qarabağda yaşayan erməniəsilli əhalisinin reinteqrasiyası ilə bağlı əməli addımlar atıb.

Prezident İlham Əliyevin çıxışlarında vurğuladığı kimi, sülh gündəliyi ilə bağlı ölkəmizin mövqeyi iki yanaşmadan ibarətdir: Azərbaycanla Hayastan arasında sülh müqaviləsinin imzalanması və Azərbaycanın Qarabağın erməni sakinləri ilə dialoqun həyata keçirilməsi.

44 günlük müharibədən sonra Azərbaycan regionda davamlı sülhün əldə olunması, Hayastanla münasibətlərin normallaşdırılması istiqamətində ardıcıl və mühüm addımlar atır. Eyni zamanda ölkəmiz tərəfindən erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyası ilə bağlı ardıcıl və effektiv fəaliyyət göstərilir.

Hələ müharibənin gedişi ərəfəsində dövlət başçısı İlham Əliyev xarici mətbuata verdiyi nüsahibəsində bildirmişdi ki, Qarabağdakı ermənilər tam əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək. Onlar ləyaqətlə yaşayacaqlar, sülh şəraitində yaşayacaqlar və ölkəmizdəki istənilən başqa insanlar üçün etdiyimiz kimi, biz onlar üçün də bütün sosial və iqtisadi imtiyazları təmin edəcəyik.

Artıq ötən dövrdə rəsmi Bakı bu istiqamətdə əməli işlər reallaşdırıb. Xatırladaq ki, bu il martın 1-də Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qərargahında Qarabağda yaşayan erməni sakinlərin təmsilçiləri ilə birinci görüş baş tutub. Görüş zamanı Azərbaycan Konstitusiyasına və qanunlarına uyğun olaraq Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan Respublikasına reinteqrasiyasına dair ilkin müzakirələr aparılıb.

Daha sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Qarabağın erməni ictimaiyyətinin nümayəndələrini reinteqrasiya ilə bağlı təmasların davam etdirilməsi, habelə Qarabağda infrastruktur layihələrinin reallaşdırılması məsələlərinin müzakirəsi üçün Bakı şəhərində ikinci görüşə dəvət edib.

### Azərbaycanda bütün xalqların və konfessiyaların nümayəndələri bir ailə kimi yaşayırlar

O da reallıqdır ki, separatçılar Qarabağda yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiya olunmalarına çirkin yollarla əngəl olmağa çalışır. Lakin dövlətimiz bu məsələdə qərarlıdır və Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, erməni sakinlərin də hüquq və təhlükəsizliyi ölkəmizin qanunvericiliyi çərçivəsində təmin olunacaq. Azərbaycanın daxili məsələsi olan bu prosesdə kənar qüvvələrin iştirakı yolverilməzdir və buna heç ehtiyac da yoxdur.

Azərbaycan min illərdir müxtəlif xalqların dostluq, mehribanlıq şəraitində yaşadığı unikal tolerantlıq məkanıdır və bununla dünyaya nümunə göstərən ölkədir. Bu baxımdan, Qarabağın erməni sakinlərinin də Azərbaycanda təhlükəsiz və ləyaqətli yaşamaları heç kimdə şübhə doğurmamalıdır və doğura da bilməz.

Necə ki bu barədə mayın 10-da Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi günü Şuşadan etdiyi təbrik müraciətində Prezident İlham Əliyev deyib: "Azərbaycanda bütün xalqların, bütün konfessiyaların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu da dünyada bir nümunədir və bunu təkcə mən yox, bir çoxları, yəni bu məsələ ilə yaxından məşğul olan ekspertlər, siyasətçilər, dövlət xadimləri, beynəlxalq təşkilatların rəhbərləri qeyd edirlər".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## 6 il əvvəl İlham Əliyevin açılışını etdiyi qazma qurğusu indi "Şahdəniz"dədir

**Heydər Əliyev adına yarımdalma qazma qurğusu artıq 6 ildir yurdumuzun qara qızıl sərvətini üzə çıxarmaq üçün Xəzərin dərinliklərində qazma əməliyyatları aparır.**

Bu, VI nəsil qazma qurğusudur və neft-qaz sənayesində qazma əməliyyatları üçün ən müasir texnoloji avadanlıqlarla təchiz edilməklə dünyada öz texnoloji keyfiyyətlərinə, eləcə də iş xüsusiyyətlərinə görə unikal qurğulardan biri sayılır.

Əvvəla qeyd edək ki, qurğunun Ümummilli Lider Heydər Əliyevin adını daşıması heç də təsadüfi deyil. Çünki Heydər Əliyev Azərbaycanın müasir neft strategiyasının müəllifidir və bu strategiya getdikcə daha da inkişaf edərək öz gözəl bəhrələrini verir. "Əsrin müqaviləsi"nin uğurlarını, Bakı Dərin Özüllər Zavodunda görülən nəhəng işləri, Bakı-Tbilisi-Ceyhan kəmərinin ahəngdar, təhlükəsiz fəaliyyətini və s. xatırlatmaq kifayətdir.

Heydər Əliyev adına yarımdalma qazma qurğusu "Kaspian Drilinq Kompani" şirkətinin rəhbərliyi ilə Azərbaycanda inşa edilib. Layihənin maliyyələşdirilməsi 90 faizi ARDNF (Azərbaycan Respublikası Dövlət Neft Fondu), 10 faizi isə SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) tərəfindən olmaqla həyata keçirilib. Satınalmaların səmərəli planlaşdırılması, tikintinin cədvələ uyğun vaxtında icra edilməsi və ciddi layihə menecmenti hesabına "Kaspian Drilinq Kompani" qurğunun inşasını layihənin ilkin büdcəsinə nəzərən 100 milyon dollardan çox qənaətlə başa vurub.

Qurğunun ümumi uzunluğu 106,5 metr, eni 69,5 metr, hündürlüyü 130 metrdir. Ümumi çəkisi isə 26 min tondur. Qurğu 1 kilometr suyun dərinliyinə qədər qazma əməliyyatları həyata keçirə bilər. Qazma dərinliyi maksimum 12,2 kilometrdir. Bu göstərici ən dərin quyuları belə qazmağa imkan verir. Yükgötürmə qabiliyyəti 5600 ton olan qurğunun su tutumu 47500 tondur. O, həmçinin dünyada 20000 PSI atmosfer təzyiqi sistemi texnologiyasına sahib olan ilk yarımdalma qazma qurğusudur. Qurğuda heyətin maksimum sayı isə 160 nəfərdir. Tikinti prosesində 2395 nəfər çalışıb ki, bu işçi qüvvənin də 80 faizə yaxını Azərbaycan vətəndaşlarından ibarət olub.



Qurğunun tikintisinə 2013-cü ilin iyun ayında başlanıb. Açılış mərasimi isə 2017-ci ilin mayında keçirilib. Həmin tədbirdə Prezident İlham Əliyev qurgunu belə dəyərləndirib: "Bu, Azərbaycan neft sənayesində çox tarixi bir hadisədir. Çünki bu günə qədər Azərbaycanda bu böyüklükdə qazma qurğusu tikilməmişdir. Bu qazma qurğusunun inşaatında iştirak etmiş bütün işçiləri, əməkdaşları təbrik edirəm, onlara minnətdarlığımı bildirirəm. Şadam ki, belə bir nəhəng qurğu Azərbaycanda inşa edilib. Bu qurğunun inşasında iştirak edənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Burada biz xarici tərəfdaşlarla növbəti əməkdaşlıq layihəsinin uğurla icra edilməsini görürük. Əlbəttə, bu, reallıqdır. Çünki uzun illərdir Azərbaycan xarici tərəfdaşlarla uğurla əməkdaşlıq edir. Xarici şirkətlər Azərbaycana investisiyalar yatırırlar. Bu qurğuya isə investisiyalar Azərbaycan dövləti tərəfindən qoyulub. Biz neftdən əldə edilmiş gəlirləri, o cümlədən belə nəhəng layihələrə yönəldirik. Bu layihənin icrası üçün həm Dövlət Neft Fondundan, həm Dövlət Neft Şirkətindən qoyulan vəsait təqribən 1 milyard dollara yaxındır. Yəni bu, həm bizim gücümüzü, həm də imkanlarımızı göstərir. Həm də onu göstərir ki, Azərbaycanda neft sənayesi uğurla inkişaf edir. Xarici şirkətlər tərəfindən Azərbaycana sərmayə qoyulanda bizim əsas şərtlərimizdən biri o idi ki, Azərbaycanda bu sərmayələr, eyni zamanda neft sənayesinin inkişafına xidmət göstərsin. Azərbaycanda iş yerləri yaradılsın, bizim işçilər yaxşı maaş alsınlar, onların peşəkarlığı artsın, onlar üçün təlim kursları keçirilsin və bu gün biz bunu görürük. Bu gün Azərbaycan vətəndaşları bütün əsas neft layihələrində uğurla işləyirlər və həm özlərinə, həm də ölkəyə böyük fayda verirlər".

Heydər Əliyev adına yarımdalma qazma qurğusu indiyədək Xəzərin Azərbaycan sektorunda "Total" şirkətinin əməliyyatçılıq etdiyi "Abşeron", bp-nin operator olduğu "Şahdəniz" layihələri çərçivəsində, eləcə də "Şəfəq-Asiman" kəşfiyyat blokunda ən dərin quyular qazıb. Hazırda qurğu "Şahdəniz" yatağının şərq cinahında yeni kəşfiyyat quyusunun (SDX-8) qazma işlərini icra edir. SDX-8 quyusunun qazılmasına bu ilin yanvar ayında başlanıb. Quyu yatağın istismarda olan məhsuldar laylarının altındakı daha dərin horizontları qiymətləndirmək məqsədilə qazılır. Quyunun ümumi dərinliyinin təxminən 7000 metr olacağı nəzərdə tutulur. Qazma işləri təxminən bir il çəkəcək. Lakin mümkündür ki, nəticələri qiymətləndirmək məqsədilə lazım ola biləcək sınaq proqramı aparmaq üçün bu müddət daha uzun olsun.

Bu günlər "Heydər Əliyev İli" çərçivəsində ARDNF-nin İcraçı direktoru İsrafil Məmmədovun, SOCAR-ın prezidenti Rövşən Nəcəfin və bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counzun da olduğu nümayəndə heyəti Heydər Əliyev adına yarımdalma qazma qurğusuna səfər edib. Səfər qazma işlərinin gedişi ilə yerində tanış olmaq və qurğunun işçi heyəti ilə görüşüb cari əməliyyatları və təhlükəsizlik göstəricilərini müzakirə etmək məqsədi daşıyıb.

Səfər çərçivəsində nümayəndə heyəti qazma qurğusu ilə yaxından tanış olub və Xəzərdə unikal sayılan bu müasir obyektin təhlükəsiz, səmərəli və etibarlı əməliyyat prosesləri və fəaliyyət mexanizmi barədə ətraflı məlumat alıb. Nümayəndə heyətindəki rəhbər şəxslər qurğunun işçi heyəti ilə görüşüblər və onlarla əməyin təhlükəsizliyi, əməliyyatlar və digər mühüm biznes fəaliyyətlərini müzakirə ediblər. Onlar həmçinin yüksək fəaliyyət göstəricilərinə, eləcə də əməliyyatların təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsinə görə bütün işçilərə minnətdarlıqlarını bildirib və bir qrup işçini təşəkkürnamələrlə təltif ediblər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Qurub-yaradan Lider haqqında yeni kitab




**Təzəcə nəşr olunmuş "Heydər Əliyev və Azərbaycanda tikinti kompleksinin inkişafı" kitabı, adından da göründüyü kimi, Ulu Öndərin rəhbərliyi ilə respublikamızın tikinti sektorunda həyata keçirilmiş genişmiqyaslı işlərdən bəhs edir.**

Məlumdur ki, 1960-cı illərdə Azərbaycan iqtisadiyyatının digər sahələri ilə yanaşı, tikinti sektorunda da dərin böhran hökm sürmüşdür. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illər isə bu sahənin sürətli inkişaf dövrü olmuşdur. Belə ki, Azərbaycanın bütün şəhər və rayonlarında mühüm sənaye, sosial-mədəni, xidmət obyektəri tikilib istifadəyə verilmiş və bu, iqtisadiyyatın inkişafında təkan olmuşdur.

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi ikinci dövrdə - 1993-2003-cü illərdə də ölkədə geniş tikinti-quruculuq işləri aparılmışdır. Ümummilli Lider rəhbərliyinin hər iki dövründə tikinti obyektlərinə tez-tez baş çəkmiş, inşaatçıların problemləri ilə tanış olmuş, onları yerindəcə həll etmişdir. O zaman tikinti sektorunda çalışan inşaatçı və memarlar Heydər Əliyevlə həmin görüşlərdən xatirələrini hələ də yaddaşlarında yaşadırlar.

Yeri gəlmişkən, sözügedən kitabda o insanların bir çoxunun xatirələri də yer almışdır. Elə kitabın müəllifi, Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun Elmi Şurasının üzvü, iqtisad elmləri namizədi Eldar Nuriyev də Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi dövrdə tikinti sahəsində məsul vəzifələrdə çalışmışdır. Məhz bu faktor həmin kitabın ərsəyə gəlməsində, yəni geniş məzmunlu və oxunaqlı olmasında böyük rol oynamışdır.

***"Azərbaycan"***

## Banklar bu il daha 300 nəfər özünüməşğulluq proqramı iştirakçısı üçün kiçik bizneslər yaradacaq



Prezident İlham Əliyevin həssas qrupların özünüməşğulluğuna banklar tərəfindən köməklik göstərilməsi ilə bağlı sosial məsuliyyətin bölüşdürülməsi təşəbbüsünə dəstək məqsədilə növbəti layihəyə - "Özünüməşğulluğa dəstək-2023" layihəsinə başlanır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bank və Banklar Assosiasiyası arasında əməkdaşlıq çərçivəsində özünüməşğulluq proqramına dəstək məqsədilə həyata keçirilən bu layihəyə 23 bank qoşulub.

Nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin icra etdiyi özünüməşğulluq proqramına cəlb olunmuş şəxslərdən 300 nəfərə həmin banklar tərəfindən bu il biznes planlarına uyğun aktivlər verilərək onlar üçün kiçik bizneslər yaradılacaq.

Onlardan əksər hissəsi şəhid ailəsi üzvləri, müharibə iştirakçıları və əlilliyi olan şəxslər, digər həssas qruplardan olanlardır.

Qeyd edək ki, özünüməşğulluq proqramının genişləndirilməsində mühüm dəstək olaraq kommersiya banklarının "Özünüməşğulluğa dəstək" layihəsi üzrə 2020-2021-ci illərdə həssas qruplardan ibarət 1489 şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik bizneslər yaradılıb.

## Dövlət Sosial Müdafiə Fondu Tovuz rayonunda ictimai dinləmə keçirib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Tovuz rayonunda ictimai dinləmə keçirib.**



Tovuz, Qazax və Ağstafa rayonlarının sakinlərinin iştirak etdiyi görüşdə fondun fəaliyyət istiqamətlərindən bəhs olunub, sosial təminat sistemində, habelə ünvanlı dövlət sosial yardımının təyin olunmasında tətbiq olunan yeniliklər diqqətə çatdırılıb.

Bu sahədə operativliyin, əlçatanlığın və şəffaflığın təmin olunması istiqamətində görülən işlər qeyd edilib. Fondun nümayəndələri ünvanlı dövlət sosial yardımı ilə bağlı təqdimatlarla çıxış ediblər.

Həmçinin ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi ilə bağlı qanunvericilikdən irəli gələn qaydalar barədə məlumat verilib, iştirakçıların sualları cavablandırılıb.

## Pambıq ixracında mövcud məsələlər müzakirə olunub

**Pambıq ixracatçıları ilə ixrac prosedurları və ixracın diversifikasiyasına dair fikir mübadiləsi aparılıb. Pambıq ixracında mövcud məsələlər müzakirə olunub.**



İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun təşkilatçılığı, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Vergi Xidməti, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Sahibkarlığın İnkişafı Fondu, İqtisadi Zonaların İnkişafı Agentliyi və Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) nümayəndələrinin iştirakı ilə pambıq ixracatçıları ilə görüş keçirilib. Tədbirdə ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə pambığın yeni ölkələrə tədarük olunması üçün tələb olunan sertifikatlar və keyfiyyət standartları haqqında ixracatçılara məlumat verilib, ixracatçıların sualları cavablandırılıb.

Görüşdə bildirilib ki, müəyyən ixrac bazarlarında pambıq ipliyinə tələbin azalması və idxalda pambıq mahlıcına üstünlük verilməsi səbəbi ilə ümumi ixrac göstəriciləri enib. İxracın azalmasının digər səbəbi kimi Türkiyədə baş verən güclü zəlzələ nəticəsində müəssisələrin fəaliyyətinin dayandırılması göstərilib. Bundan əlavə, nəqliyyat çatışmazlığı tədarük prosesini yubadıb. Bu məsələlər ilə bağlı şirkət nümayəndələrinin tələb və təklifləri dinlənilib və ixracatçılar tərəfindən səsləndirilən çətinliklərin həlli istiqamətində aidiyyəti qurumlar tərəfindən işlərin aparılacağı bildirilib.

Görüş iştirakçılarına AZPROMO-nun dəstək tədbirləri, o cümlədən bu il təsdiqlənməsi gözlənilən logistikanın subsidiyalaşması mexanizmi haqqında məlumat verilib.

## DSMF-nin xərcləri dörd ayda 13 faiz artıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin yanvar-aprel aylarında proqnozla müqayisədə 6 faiz və ya 116 milyon manat çox olmaqla 2 milyard 118 milyon manat təşkil edib.**

Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları artmaqda davam edib. Bu daxilolmalar yanvar-aprel aylarında proqnoza nisbətən 8 faiz və ya 116 milyon manat artaraq 1 milyard 625 milyon manat olub.

Son 4 ayda DSMF-nin xərcləri isə ötən ilin müvafiq dövrünə nisbətən 13 faiz və ya 237 milyon manat artaraq 2 milyard 3 milyon manata çatıb.

## AZSTAND və Amerika Test və Materiallar Cəmiyyəti arasında əməkdaşlığa dair müqavilə imzalanıb

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu ölkə ərazisində Amerika Test və Materiallar Cəmiyyətinin (ASTM) standartlarının rəsmi nəşrlərini yaymaq hüququnu əldə edib.**

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) və Amerika Test və Materiallar Cəmiyyəti (ASTM) arasında əməkdaşlığa dair müqavilə imzalanıb.

Müqaviləyə əsasən, milli standartlaşdırma qurumu olan AZSTAND ölkə ərazisində ASTM standartlarının rəsmi nəşrlərini yaymaq hüququnu əldə edib.

Metallurgiya, boya, plastik, tekstil, neft və neft məhsulları, tikinti, energetika, elektronika, ətraf mühit, istehlak malları, kompüter sistemləri, tibbi xidmətlər və daha bir çox sahəni əhatə edən ASTM standartlarının Azərbaycanda tətbiqi ölkə daxilində istehsal olunan məhsulların, göstərilən xidmətlərin və onunla bağlı proseslərin keyfiyyətinin yüksəldilməsinə töhfə verəcək.




Məlumat üçün bildirək ki, 1898-ci ildə yaradılan Amerika Test və Materiallar Cəmiyyəti (ASTM) materiallar, məhsullar, sistemlər və xidmətlər üçün könüllü standartlar hazırlayan və nəşr edən beynəlxalq təşkilatdır. Hazırda dünya üzrə 12 800-dən çox ASTM standartları tətbiq olunur.

# AMEA-da Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib

Mayın 17-də AMEA-nın Humanitar Elmlər Bölməsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə görkəmli yazıçı Mir Cəlal Paşayevin anadan olmasının 115 illik yubileyinə həsr edilmiş "Mir Cəlal və ədəbi-tarixi proses" mövzusunda elmi sessiya keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl Mir Cəlalın əsərlərini əks etdirən kitab sərgisi ilə tanışlıq olub. Sərgi Azərbaycan Milli Kitabxanası tərəfindən təşkil edilib.

Elmi sessiyanı AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq bildirib ki, Ədəbiyyat İnstitutu ölkəmizdə ədəbiyyatşünaslıq sahəsində tədqiqatların aparıldığı başlıca mərkəzdir və elmi-tədqiqat müəssisəsində görkəmli yazıçı Mir Cəlalın yubileyinin keçirilməsi ədəbiyyatşünas alimlərin mənəvi borcudur. Ötən müddət ərzində ədibin həyatının müəyyən dövrlərinin bağlı olduğu Bakı Dövlət Universiteti, Gəncə şəhəri və Qazax Müəllimlər Seminariyasında 115 illik yubileyinin qeyd olunduğunu deyən AMEA rəhbəri Mir Cəlalın 16 il Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, 1 aydan artıq müddətdə isə institutun direktor əvəzi kimi çalışdığını diqqətə çatdırıb.

Akademik bildirib ki, Mir Cəlalı fərqləndirən başlıca cəhət onun universal, çoxcəhətli fəaliyyətə malik olmasıdır. O, yazıçı, ədəbiyyatşünas, publisist, pedaqoq kimi məşğul olduğu bütün sahələrin peşəkarı olub. Mir Cəlalın yaşadığı dövrü ideallaşdırmadan, sərt kommunist rejiminin ideologiyasını təbliğ etmədən yalnız obyektiv gerçəkliyi, insanın real həyatını, obyektiv gerçəkliyi meydana qoyduğunu deyən AMEA prezidenti ədibin bu dəst-xətinin roman, povest, satirik-yumoristik əsərlərində də müşahidə olunduğunu söyləyib. Xüsusilə "Həyat hekayələri", "Sadə hekayələr", "Bir gəncin manifesti" və başqa əsərlərində sadə həyat hekayələrinin, insanın mənəvi aləminin oxuculara çatdırıldığını bildirib. Vurğulayıb ki, görkəmli yazıçı epik ədəbiyyatın bütün sahələrində ərsəyə gətirdiyi mükəmməl əsərlərlə, həm də ədəbiyyatşünaslıq istiqamətindəki fəaliyyəti ilə Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur.

İsa Həbibbəyli yazıçının "Füzulinin poetik xüsusiyyətləri" monoqrafiyası ilə şairin poetikasına dair nadir bir əsəri meydana qoyduğunu deyib, ilk və son dəfə bu əsərlə Azərbaycan ədəbiyyatşünaslığında Füzulinin 17-18 beytlik müəmmalarının tədqiqata cəlb olunduğunu, bu əsərin həm də poetika ilə estetikasının vəhdətini təşkil etdiyini bildirib. Həmçinin Mir Cəlalın "Azərbaycanda ədəbi məktəblər" mövzusunda mükəmməl doktorluq işi ilə Azərbaycanda ədəbi məktəblərin tarixinə nəzər yetirdiyini vurğulayıb. Eyni zamanda ədibin ədəbiyyat nəzəriyyəsi sahəsində böyük xidmətləri olduğunu, realizm, satira və yumorun dəqiq mahiyyətini müəyyənləşdirdiyini diqqətə çatdırıb. AMEA rəhbəri qeyd edib ki, Mir Cəlal həm də görkəmli pedaqoqdur və onun "XX əsr Azərbaycan ədəbiyyatı" və "Ədəbiyyatşünaslığın əsasları" dərslikləri bu gün də ali məktəblərdə tədris olunur. Mir Cəlal həm də yaradıcılığı və zəngin fəaliyyəti ilə XX əsrin əvvəlləri ilə məşhur "altmışıncılar" ədəbi nəsli arasında körpü rolunu oynayıb, yeni ədəbi nəslin yetişməsinə mühüm töhfələr verib.

AMEA rəhbəri bildirib ki, Mir Cəlalın zəngin irsi bu gün alimlərimiz tərəfindən müstəqillik dövrünün çağırışları əsasında yenidən tədqiqatlara cəlb olunur, əsərləri yenidən çap edilir və onun işıqlı xatirəsi gələcək nəsillərə çatdırılır.

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov "Mir Cəlal Paşayevin ictimaiyyətə az məlum olan əsərlərinin nəşri haqqında", filologiya üzrə fəlsəfə doktorları, dosent Aslan Salmansoy "Səməd Vurğun və Mir Cəlal", professor Asif Rüstəmli "Mir Cəlalın həyatı və yaradıcılığının ilkin dövrü", filologiya elmləri doktoru İsmayıl Kazımov "Mir Cəlal romanlarında bədii dil xüsusiyyətləri", filologiya elmləri doktoru Əlizadə Əsgərli "Füzuli sənətkarlığı" və "Ədəbi məktəblər" monoqrafiyalarında poetika haqqında", filologiya üzrə fəlsəfə doktoru Sevinc Əliyeva "Mir Cəlal hekayələrində folklor və milli-mənəvi dəyərlər", Dilarə Adilova "Mir Cəlal hekayələrində müasirlik" və Fidan Rzayeva "Mir Cəlal yaradıcılığı səhnədə" mövzularında məruzələrlə çıxış ediblər.

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru akademik Teymur Kərimli və Ədəbiyyat İnstitutunun şöbə müdiri filologiya üzrə elmlər doktoru Vaqif Yusifli Mir Cəlalla bağlı xatirələrini bölüşüblər.

Sonda çıxış edən ADA Universitetinin rektoru professor Hafiz Paşayev Mir Cəlalın 5 il bundan əvvəl 110 illik yubileyinin də Ədəbiyyat İnstitutunda keçirildiyini xatırladıb, budəfəki yubileyin AMEA miqyasında humanitar sahə ilə müxtəlif elmi-tədqiqat institutlarının alimləri tərəfindən qeyd olunmasının təqdirəlayiq hal olduğunu bildirib. Məruzələrin ciddi elmi araşdırmalar əsasında hazırlandığını deyən Hafiz Paşayev çıxışlarda tədqiqatçılar tərəfindən məlum olmayan məsələlərə toxunulduğunu, xüsusilə Mir Cəlal və Səməd Vurğun, Mir Cəlalın əsərlərinin dil xüsusiyyətləri, Füzuli ilə bağlı, teatr və səhnə fəaliyyətinə dair tədqiqatların davam etdirilməsinin gələcəkdə onun yaradıcılığının yeni tərəflərinin açılmasına gətirib çıxaracağını bildirib.

Tədbirdə AMEA-nın Humanitar Elmlər Bölməsinə daxil olan elmi müəssisə və təşkilatların baş direktorları və əməkdaşları iştirak ediblər.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mayın 17-də Ağcabədi şəhərində yerləşən Yeni Azərbaycan Partiyasının Ağcabədi Rayon Təşkilatının inzibati binasında vətəndaşları qəbul edib.**

Vətəndaş qəbulunda Tərtər, Bərdə, Ağdam, Laçın və Ağcabədi rayonlarının sakinləri iştirak ediblər. Qəbul zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb. Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal müsbət həllini tapıb.

*AZƏRTAC*

Qarabağdan reportaj







# Əzəmətli quruculuq ünvanı

## Şuşa sürətlə dirçəlir, şöhrətini özünə qaytarır

**Şuşaya budəfəki gəlişimiz "Xarıbülbül" Musiqi Festivalının keçirilməsindən sonraya təsadüf etmişdi. Zəfərimizi dünyaya bəyan edən növbəti festivalın başa çatmasına, qonaqların artıq getməsinə baxmayaraq, Şuşanın görüşünə gələnlər yenə də çox idi, şəhər həmişəki kimi qonaqlı-qaralıydı. Hələ isinməmiş yaz havasının qatı dumanı isə Qarabağımızın mirvarisinə bir başqa gözəllik verirdi…**









İşğaldan azad olunandan sonra Şuşaya ilk dəfə təxminən ilyarım əvvəl səfər etmişdik, 2021-ci ilin oktyabr ayında. Ötən bu qısa müddətdə bərpa olunan və yeni inşa edilən ünvanları ilə Şuşa inanılmaz dərəcədə dəyişmişdi...

### Şuşanı xalqımızın tarixindən qoparmaq mümkün deyil

Təməli Qarabağ xanı Pənahəli tərəfindən qoyulan Şuşa xalqımızın möhtəşəm mədəni, mənəvi irsidir. Şuşa elə bir abidədir ki, 28 il yarım davam edən işğal dövründə Ermənistan və dünya erməniliyi onu xalqımızın tarixindən qopara bilmədi. Bu şəhər heç vaxt ermənilərə qucaq açmadı, işğalçıları qəbul etmədi. Çünki onlar üçün əvvəldən də yad idi, işğal dövründə də yad olaraq qaldı.

271 yaşlı Şuşa Azərbaycanın tarixidir. Bu xanzadə şəhərin hər küçəsi, hər binası, hər evi xalqımızın milli dəyərlərinin, əzəmətli keçmişinin izləridir. Şuşanın hər daşı belə xalqımızın mənəvi xəzinəsidir. Bu əzəmətli şəhəri Azərbaycandan ayırmaq sadəcə mümkün deyil. Prezident İlham Əliyevin dediyi kimi, Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib.

Elə simasını dəyişdirə, erməniləşdirə bilmədiyi üçün də düşmənin vandalcasına dağıtdığı Şuşa indi sürətlə bərpa olunur, dirçəlir. Şuşa Azərbaycan şəhəri kimi tarixi şöhrətini və əzəmətini özünə qaytarır. Şuşa bütün dünyaya xalqımızın zəfərini, dövlətimizin qüdrətini, Prezident İlham Əliyevin qətiyyətini bəyan edir.

Şuşaya budəfəki səfərimiz zamanı şəhərdə aparılan genişmiqyaslı quruculuq işlərinə şahidlik etdik.

### Mehmandarovların möhtəşəm malikanəsi

Şuşaya ilk səfərimiz zamanı tanış olduğumuz ünvanlardan biri Azərbaycan tarixinin ən köklü, sanballı, qəhrəman sülalələrindən olan Mehmandarovların malikanəsi idi. XVIII əsrdə inşa olunan və Şuşanın ən möhtəşəm evlərindən sayılan Mehmandarovların malikanəsində yalnız Qarabağın deyil, bütün Azərbaycanın fəxrinə, qüruruna çevrilmiş şəxsiyyətlər dünyaya gəlib, yaşayıblar. Bu evdə Azərbaycan milli müqavimət hərəkatının - ilk qisas təşkilatımız olan "Difai"nin tariximizin şanlı səhifələrinə çevrilən fəaliyyətinin planları hazırlanıb.

Təsadüfi deyil ki, bu ev Prezident İlham Əliyevin tapşırığı ilə Şuşada bərpa edilən ilk tarixi-memarlıq obyektlərinin sırasına salınmışdı. Bu malikanə Birinci vitse-prezident Mehriban Əliyevanın şəxsi nəzarəti və himayəsi ilə 2021-ci ilin oktyabr ayından Heydər Əliyev Fondu tərəfindən yeni Şuşanın qədim nümunəsi kimi bərpa edilməyə başlanıldı.

Bütün tarixi və milli elementlər nəzərə alınmaqla yüksək zövqlə aparılan bərpa işləri bu yaxınlarda başa çatıb və mayın 9-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə malikanə kompleksinin açılışı olub.

Şuşaya budəfəki səfərimiz zamanı bir daha Mehmandarovların malikanəsinə üz tutduq. Müşahidə etdik ki, kompleksə daxil olan evin və məscidin binalarının dam örtükləri yenilənib, tavanlar bərpa edilib. Malikanə kompleksinin dağılmış divarı düzəldilib, zədəli divarda bərkitmə işləri aparılıb. Evin döşəmə daşlarının dağılmış yerləri, pilləkəni yenidən qurulub, divar və tavanlardakı rəsmlər eskiz layihələri üzrə bərpa edilib. Məscidin "Güldəstə"si restavrasiya olunub. Kompleksdə muzey ekspozisiyası qurulub. Evin həyətindəki XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilib.

### Yuxarı Gövhər ağa və Saatlı məscidləri bərpa olunub

Qeyd edək ki, Şuşada Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr çərçivəsində şəhərin tarixi, mədəni və dini abidələri sürətlə bərpa olunmaqdadır. Bu layihələrin bir qismi artıq yerinə yetirilib.

Şuşada baş çəkdiyimiz Yuxarı Gövhər ağa və Saatlı məscidləri də Heydər Əliyev Fondu tərəfindən tam bərpa edilib. Yuxarı Gövhər ağa məscidi ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Şuşa şəhəri işğal altında olduğu müddətdə Yuxarı Gövhər ağa məscidi ermənilər tərəfindən dağıdılmışdı. Şəhər işğaldan azad edildikdən sonra məsciddə konservasiya və bərpa işlərinə başlanılıb. 2021-ci ilin sonlarından başlanan bərpa işləri məscidin özünəməxsus memarlıq üslubuna uyğun aparılıb. İşğal dövründə məscidə ermənilər tərəfindən edilmiş müdaxilələr tam aradan qaldırılıb. Bərpa işləri mədrəsə binasını da əhatə edib. Mədrəsə binasının ərazisində məscid minarəsinin ornamentlərini və otaqların rəsmlərini işləmiş Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunan sərgi açılıb.

Saatlı məscidində də bərpa işləri 2021-ci ilin dekabrından başlamışdı. Bu məscid də Yuxarı Gövhər ağa məscidi kimi erməni vandalizminin qurbanı olmuşdu. Burada da ermənilər tərəfindən məscidə edlilən müdaxilələr aradan qaldırılmış, bərpa prosesi zamanı ornamentlər bütün incəliklərinə qədər qorunub saxlanılmışdır.



### Şəhərin yeni ünvanları

Şuşa Hotel-Konqres Mərkəzi Kompleksi isə Şuşanın yeni ünvanları sırasında yer alır. Qeyd edək ki, bu kompleksin ərazisində işğal dövründə burada separatçı rejim "parlament"in binasının tikintisini planlaşdırırdı. Lakin Azərbaycan Ordusu düşmənin bu niyyətini gözündə qoydu.

Təməli 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan Şuşa Hotel-Konqres Mərkəzi Kompleksi Şuşanın mərkəzində - Zəfər yolunun üzərində yerləşir. Bina həm klassik, həm də postmodern memarlıq üslubunda layihələndirilib və mürəkkəb konstruktiv quruluşa malikdir. Beşulduzlu kompleks müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn olunub. Binanın daxili dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin, tarixinin müxtəlifliyini və zənginliyini əks etdirir. Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq olunub.

Ümumiyyətlə, müşahidələrimiz göstərdi ki, Şuşada bərpa və quruculuq işləri planlı şəkildə, şəhərin baş planı əsasında aparılır. Şəhərin baş planı isə 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təqdim olunmuşdu. Hazırda şəhərdə salınan yeni yaşayış massivi də baş plan əsasında həyata keçirilir.

Şuşada ilk yaşayış kompleksinin inşasına 2021-ci ildən başlanılıb, Prezident İlham Əliyevin iştirakı ilə 1-ci məhəllənin təməli qoyulub. Prezident İlham Əliyevin bir neçə gün əvvəl Şuşaya səfəri zamanı isə 17 binadan ibarət ikinci yaşayış kompleksinin təməli qoyulub. 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq.

### Bərpa və quruculuq işləri kompleks şəkildə aparılır

Şuşada bərpadan sonra istifadəyə verilən ünvanlardan biri Yaradıcılıq Mərkəzidir. Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Öyrənirik ki, Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb.

Milli Xalça Muzeyinin Şuşa filialı da yenidən qurulub. İşğal dövründə bina yararsız hala salınmış və tarixi görkəminə müdaxilələr edilmişdir. Burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. Görülmüş işlər nəticəsində binanın tarixi siması özünə qaytarılmışdı.

Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi də şəhərdə aparılan kompleks bərpa və quruculuğun nümunəsidir. Bu mərkəz şəhərin enerji təchizatının ən müasir çağırışlar əsasında təmin edilməsində böyük rol oynayacaq.

Şuşanın küçələri də yenidən qurulur, lazımi infrastruktur yaradılır. Yenidən qurulan küçələrin Heydər Əliyev, 8 Noyabr, Dəmir Yumruq, Zəfər, Qarabağ, Atatürk, Pənahəli xan adlandırılması Vətən müharibəsindəki qələbəmizi, tariximizə, milli irsimizə dərin ehtiramı, Azərbaycan-Türkiyə qardaşlığını özündə təcəssüm etdirir.

Bərpaolunan Şuşa Realnı Məktəbi, Şirin su hamamı, Sadıqcanın evi də Şuşanın möhtəşəm ünvanları sırasında yer alacaq. Eyni zamanda şəhərdə səhiyyə və təhsil infrastrukturlarının yaradılması istiqamətində də müxtəlif layihələr icra edilir.

Zəfərimizin rəmzi olan Şuşadan ən gözəl təəssüratlarla ayrıldıq. Bəli, Şuşa Qarabağın əzəmətli quruculuq meydanı kimi sürətlə dirçəlir, şöhrətini özünə qaytarır. Azərbaycanın mədəniyyət paytaxtında həyata keçirilən bütün bərpa və yenidənqurma layihələri xalqımızın milli dəyərlərinə, özünəməxsus memarlıq ənənələrinə əsaslanır. Şuşada bir daha gördük ki, Qarabağın mirvarisi tezliklə nəinki regionun, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

*Rəşad CƏFƏRLİ,*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

*Bakı-Hadrut-Şuşa-Bakı*

◆ Müəllifi İlham Əliyevdir



# 18 milyard dollarlıq sərmayə

## Türkiyənin ən böyük xarici investoru olan "SOCAR Türkiyə" iki qardaş ölkənin iqtisadi həyatında mühüm rol oynayır

**Tarixinin ən qüdrətli Azərbaycanı hazırda investisiya cəlb edən ölkədən sərmayə yatıran və xüsusilə, strateji əhəmiyyətli layihələrdə nümunə göstərilən dövlət kimi tanınır. Təbii ki, bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasət nəticəsində qazanılan iqtisadi müstəqilliyin, strateji və etibarlı tərəfdaşlıq əlaqələrinin yüksələn xətlə inkişafı nəticəsində reallaşıb.**






Cənubi Qafqazda ən böyük investisiya layihələrinə sahib olan Azərbaycanın iştirakı ilə son 20 ildə həyata keçirilən layihələrin sırasında Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri, Orta dəhliz, "Cənub qaz dəhliz"i və sairə var.

Bu gün Azərbaycanın neft və qazdan əldə etdiyi gəlirlər ölkəmizi dünyanın potensial investorlarından birinə çevirib. Bunun nəticəsidir ki, hazırda xaricə qoyulan investisiyaların coğrafiyası sürətlə genişlənməkdədir. Belə ki, Azərbaycan qonşu ölkələr, o cümlədən MDB dövlətləri ilə yanaşı, Avropa İttifaqı ölkələrində və uzaq Amerika qitəsində müxtəlif investisiya layihələri həyata keçirir. Yatırılan sərmayənin böyük hissəsi isə qardaş Türkiyənin payına düşür. Həmin müəssisələrdən ən böyüyü isə Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR-dır. Avropanın aparıcı enerji şirkətlərindən olan SOCAR neft və qaz yataqlarının kəşfiyyatı, neft, qaz və qaz kondensatının hasilatı, emalı və nəqlini həyata keçirməklə hər iki qardaş ölkəyə böyük iqtisadi dividend gətirir.

### Türkiyənin ən böyük sənaye holdinqi

2006-cı ildə təsis edilən "SOCAR Türkiyə" qardaş ölkədəki fəaliyyətini ildən-ilə genişləndirir. Şirkət son 15 ildə Türkiyə iqtisadiyyatına 18 milyard ABŞ dolları məbləğində investisiya yatırıb. İnvestisiyaların 10 milyard dolları təkcə İzmir şəhərinin Əliağa bölgəsinə yönəldilib.

Neftin emalı, neft-kimya məhsullarının istehsalı, xam neft və təbii qazın idxalı, saxlanması, paylanması və satışı, eləcə də logistika sahəsində böyük nailiyyətlər qazanan "SOCAR Türkiyə" qardaş ölkənin ən iri sənaye holdinqinə çevrilib. Hazırda o, Türkiyənin ən böyük xarici investorudur. "SOCAR Türkiyə" qrup şirkətləri hər il qardaş ölkənin cari kəsirinin təqribən 2 milyard dollar həcmində azalmasına töhfə verir.

Bu məlumatları Azərbaycandan Türkiyənin İzmir şəhərinə ezam olunmuş bir qrup KİV nümayəndəsi üçün təşkil edilən mətbuat konfransında "SOCAR-Türkiyə" şirkətinin baş direktoru vəzifəsini icra edən Elçin İbadovla, "SOCAR-Türkiyə"nin emal və neft-kimya bölməsinin rəhbəri, "Petkim Petrokimya Holding"in baş direktoru Anar Məmmədov söyləyib.

Qeyd edək ki, "SOCAR Türkiyə"nin sərmayələrinin böyük hissəsi İzmirin Əliağa bölgəsində yerləşir. 1453 hektar ərazini əhatə edən bu bölgə "Xüsusi Sənaye Bölgəsi" adlandırılıb.

### "SOCAR"ın Azərbaycandan kənarda inşa etdiyi ilk neft emalı müəssisəsi

Şirkətin ümumi fəaliyyətini dəyərləndirən Elçin İbadov bildirdi ki, "SOCAR Türkiyə"nin neft-kimya məhsullarında bazar payı 12 faiz təşkil edir. Şirkət ölkənin neft məhsullarına olan tələbatın 25 faizini qarşılaya bilir. "SOCAR Türkiyə" Türkiyənin dizel yanacağına olan ehtiyacının 20-25 faizini təmin edir. Qrupun "Petkim", "STAR Neft Emal Zavodu", "SOCAR Terminal", "SOCAR Depolama" və "Petkim RES" (Külək-Elektrik Stansiyası) şirkətləri mövcuddur. Bütün bunlar İzmirin Əliağa bölgəsində yerləşir."

Bu istiqamətdə "STAR" Neft Emalı Zavodunu göstərmək yetərlidir. "STAR" zavodu "SOCAR"ın Azərbaycandan kənarda inşa etdiyi ilk neftemalı müəssisəsidir. Təməli 2011-ci ilin oktyabrın 5-də qoyulan zavod 2018-ci il oktyabrın 19-da açılıb. 2019-cu ilin sentyabr ayından etibarən zavod tam gücü ilə işləməyə başlayıb.

"STAR" Türkiyənin ilk Strateji Sərmayə Təşviq Sənədinə sahibdir. Zavodun illik xam neft emal gücü 10 milyon tondan 2022-ci ildə 11 milyon tona çatdırılıb. Müəssisədə "Urals", "Azeri Light" və "Kərkük" neft növləri emal olunur. Əsas məhsullarını dizel yanacağı (4,8 milyon ton), təyyarə yanacağı, nafta (1,6 milyon ton), maye neft qazı, qarışıq ksilol, neft koksu təşkil edir.

Bu layihənin həyata keçirilməsi və eyni zamanda ölkəmizin belə bir layihədə yer alması Azəbaycanın iqtisadi qüdrətinin göstəricisidir. İqtsadiyyatımız fundamental və stabil inkişafa malik olmasa, bu cür layihələrə qatıla bilməzdik. Bu gün Azərbaycan bir sıra nəhəng iqtisadi layihələrin təşəbbüskarı kimi çıxış edir və bu layihələrin gerçəkləşməsində birbaşa rola malikdir. Bütün bunlar ölkə iqtisadiyyatının dinamik inkişafından xəbər verir.

Elçin İbadov dedi ki, "SOCAR" bu cür iri beynəlxalq layihələrə investisiya yerləşdirməklə transmilli şirkət və ciddi investor kimi öz imicini möhkəmləndirir. Layihə Azərbaycana qısamüddətli perspektivdə on milyonlarla dollarla, ortamüddətli perspektivdə isə yüz milyonlarla dollarla ölçülən dividendlər almağa imkan verəcək.

Elçin İbadov həmçinin Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) fəaliyyətinə də toxunaraq vurğuladı ki, TANAP fəaliyyətə başladığı 2018-ci il iyunun 30-dan bu günədək Azərbaycandan ümumilikdə 45 milyard kubmetrə yaxın təbii qaz tədarük edilib. Bunun 23,3 milyard kubmetri Avropaya, 21,5 milyard kubmetri isə Türkiyəyə nəql olunub. Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükü isə 2020-ci il dekabrın 31-dən başlayıb.

"SOCAR-Türkiyə" rəsmisi, həmçinin qeyd etdi ki, Türkiyə tərəfindən qaz təsərrüfatının inkişaf etdirilməsi istiqamətində məqsədyönlü işlər Trans-Anadolu kəməri (TANAP) üçün genişləndirmə imkanları yaradacaq. Belə ki, Türkiyədə qaz resurslarının axtarışı, mayeləşdirilmiş təbii qaz stansiyalarının tikintisi və qaz xətlərinin qurulması istiqamətində məqsədyönlü iş artıq 7 ildir davam etdirilir: "Biz Türkiyənin bu istiqamətdəki potensialına inanırıq. Bu, bizə imkan verəcək ki, TANAP-dan daha səmərəli istifadə edək, hazırda TANAP xəttinin genişləndirilməsi ilə bağlı müvafiq işlər aparılır.

### "STAR" Neft Emalı Zavoduna 6,7 milyon dollarlıq investisiya qoyulub

Elçin İbadovun sözlərinə görə, ötən illərdə təkcə rəqəmsallaşmaya 70 milyon dollarlıq investiya qoyulub. Onun fikrincə, yatırılan investisiyaların həcmi deyil, onun səmərəliliyi, əhəmiyyəti və davamlılığı daha vacibdir: "Yatırılan investisiyanın rentabelliyi baxımından düşünürəm ki, "SOCAR Türkiyə" yüksək nəticələr göstərib. Təbii ki, bazar şərtlərinin səmərəliliyi, eyni zamanda müəyyən güzəştlərin olması bizə bu nəticələri əldə etməyə imkan yaratdı. Təkcə "STAR" Neft Emalı Zavoduna 6,7 milyon dollarlıq investisiya qoyulub.

İki il bundan qabaq "Petkim"in bazar payı 18 faiz təşkil edib. Azalmaya əsas səbəb isə Türkiyənin neft-kimya bazarının böyüməsidir: "Ümumiyyətlə, bu göstərici ondan xəbər verir ki, Türkiyənin neft-kimya bazarının potensialı daha böyükdür".

### Gələn il "STAR" Neft Emalı Zavodunun fəaliyyəti müvəqqəti dayandırılacaq

"SOCAR Türkiyə" Emal və Neft-Kimya bölməsinin rəhbəri və "Petkim Petrokimya Holding"in Baş direktoru Anar Məmmədov isə bildirdi ki, ötən il "Pektim" zavodu 3 milyard dollar həcmində məhsul istehsal edib və 900 milyon dollarlıq ixrac həyata keçirib.

Anar Məmmədovun digər açıqlaması isə jurnalistlərin böyük marağına səbəb oldu. O, ilk olaraq bəyan etdi ki, bu il SOCAR-ın Türkiyədəki "STAR" Neft Emalı Zavodunda 12 milyon ton neft emalı planlaşdırılır.

Anar Məmmədovun diqqətçəkən açıqlamalarından biri də "STAR" Neft Emalı Zavodunun gələn il fəaliyyətinin müvəqqəti dayandırılacağı ilə bağlı oldu. Qeyd etdi ki, 2019-cu ilin sentyabr ayından etibarən tam gücü ilə işləməyə başlayan zavodun planlaşdırılmış dayandırılması bir neçə məqsəd daşıyır: "Əvvəla, neft emalı zavodu istifadəyə veriləndən sonra birinci dəfə dayandırılacaq və bu da ilk növbədə planlaşdırılmış profilaktik işlərin aparılması məqsədi daşıyır. Digər məqsəd zavoddakı planlı təmir işlərinin aparılması qrafikində tezliliyin uzadılmasını təmin etməkdir. Zavodda aparılacaq əlavə tədbirlər nəticəsində müəssisənin dayandırılma tezliyi dörd ildən beş ilədək uzadılacaq".

Əlbəttə, müəssisənin təqribən iki aylıq - 45-60 günlük planlı profilaktik işlərinin aparılması üçün dayandırılması şirkət üçün itkilər deməkdir. Zavodun planlı təmirlərə dayandırılması tezliyinin uzadılması isə maliyyə baxımından müsbət nəticələrə hesablanıb.

Anar Məmmədov həmçinin qeyd etdi ki, "STAR" zavodundakı istehsal prosesində ildə 1 milyon tondan çox reformat məhsul əldə edilir. Bu da neft-kimya sənayesi üçün dəyərli xammaldır. Lakin Türkiyədə bu məhsulun bazarı yoxdur. Bu məhsullara əsasən Amerika və Asiya ölkələrində tələbat var və bu məhsulu gələcəkdə ixrac etmək planlaşdırılır. Reformat kimi xam maldan neft-kimya sənayesində benzol və digər faydalı məhsulların istehsalında istifadə olunur.

### Zəlzələ bölgəsinin bütün yanacaq xərci "SOCAR Türkiyə" tərəfindən qarşılanıb

Türkiyədə baş verən təbii fəlakət, əlbəttə ki, Azərbaycanda da hər kəsi dərindən kədərləndirən hadisə oldu. Şad günlərdə birlikdə olan qardaş ölkələr ağır günlərdə də həmrəylik nümayiş etdirdilər. Azərbaycan xalqı və dövləti qardaş ölkəyə yardım üçün əlindən gələni əsirgəmədi.

Elə "SOCAR könüllüləri" də zəlzələ bölgəsində zərərçəkənlərə böyük kömək göstəriblər. Mətbuat konfransında Elçin İbadov qeyd etdi ki, şirkətin xüsusi təyinatlı işçiləri ilk gündən zəlzələ bölgəsinə yollanıb: "Zəlzələ bölgəsində yanacaqla bağlı infrastruktur tamamilə çökmüşdü. Yanacaq xərci ilə bağlı bütün ehtiyac "SOCAR Türkiyə" tərəfindən qarşılandı. Zəlzələ bölgəsinə 100 milyon lirə maddi yardım həyata keçirildi. Bundan başqa, bir neçə ailə Əliağa bölgəsində yerləşdirildi. Onlara lazımi dəstək göstərildi". Əlbəttə ki, bu qardaş qayğısının əyani təzahürüdür.

Mətbuat konfransının sonunda Elçin İbadov bəyan etdi ki, bu gün neft-kimya məhsullarının istehsalı "SOCAR"ın əsas strategiyasında önəmli yer tutur. Neft-kimyanı və neft-kimya məhsullarını əvəz edəcək məhsullar isə hələ ki yoxdur. Bu səbəbdən də bu layihə hər zaman gündəmdə olacaq. "Məqsəd Azərbaycanla Türkiyə arasındakı münasibətlərə "SOCAR Türkiyə"nin böyük töhfələr verməsidir. Güman edirəm, hələ ki bu missiyanı uğurla yerinə yetiririk", - deyə Elçin İbadov jurnalistlərin diqqətinə çatdırdı.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Bakı-İzmir-Bakı*








# Türkiyədən demokratiya dərsi

## 14 may seçkiləri qardaş xalqın yüksək siyasi mədəniyyətinin təcəssümü oldu





Mayın 14-də Türkiyədə keçirilən prezident və parlament seçkilərinin nəticələri qardaş xalqın mövcud siyasi kursun davam etdirilməsində maraqlı olduğunu göstərdi. Birinci turda Türkiyə vətəndaşlarının əsas qismi Prezident Rəcəb Tayyib Ərdoğana səs verdi.

Seçkinin nəticələrinə görə, parlamentdə Ərdoğanın lideri olduğu Cümhur İttifaqı üstünlük əldə etdi. Prezident seçkilərinin mayın 28-nə təyin olunmuş ikinci turunda isə Cümhur İttifaqından Rəcəb Tayyib Ərdoğan, Millət İttifaqından Kamal Kılıçdaroğlu mübarizə aparacaqlar.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, bu seçkilər Türkiyə dövlətinin və xalqının siyasi cəhətdən yetkin olduğunu və demokratik normalara əməl etdiyini bir daha təsdiqlədi.

### Xalq Ərdoğanın xidmətlərinə laqeyd yanaşmadı

Milli Məclisin deputatı Məlahət İbrahimqızı qəzetimizə açıqlamasında deyib ki, 14 may seçkiləri Türkiyə xalqının və dövlətinin demokratik dəyərlərə necə bağlı olduğunu göstərdi: "Ona görə bu seçkiləri demokratiya bayramı da adlandırmaq olar. Nəzərə almaq lazımdır ki, dünyanın ən demokratik ölkələrində belə, bu qədər seçici fəallığı, azad və şəffaf seçki prosesi izlənilməyib. Bu seçkilər türkofobiyanın mövcud olduğu ölkələrə, təşkilatlara, eləcə də mətbuata bir növ demokratiya dərsi keçdi".

Deputat bildirib ki, Türkiyənin yerləşdiyi coğrafiya çox mürəkkəbdir: "Qardaş ölkədə geosiyasi təhlükələr daim mövcud olduğuna görə həmin bölgədə tarixboyu ciddi toqquşmalar baş verib. Türkiyə son 100 ildə də ciddi problemlərlə üzləşib. Lakin 2002-ci ildə Baş nazir seçilmiş Rəcəb Tayyib Ərdoğan ilk gündən başlayaraq ölkədə çox böyük işlər həyata keçirib, Türkiyənin dünyadakı nüfuzunun artmasına birbaşa səbəb olub. Təsadüfi deyil ki, bu gün Türkiyə G20-nin üzvü və Avropanın ən inkişaf etmiş ölkələrindən biridir".

Məlahət İbrahimqızının sözlərinə görə, xarici güclərin ciddi problemlər yaratmasına baxmayaraq, Türkiyə bir xalq və dövlət olaraq Ərdoğanın rəhbərliyi ilə bütün mübarizələrdən qalib çıxıb: "Ölkədə, demək olar ki, hər gün böyük qələbələrə imza atılır. Türkiyə vətəndaşları da Ərdoğanın misilsiz xidmətlərinə laqeyd yanaşmırlar. Bunun nəticəsidir ki, ölkəyə 20 ildən artıq rəhbərlik edən Rəcəb Tayyib Ərdoğan seçkidə rəqiblərindən çox səs toplayıb".

### Qardaş ölkənin regional mövqeyi daha da güclənəcək

Milli Məclisin deputatı Vüqar Bayramov deyib ki, Türkiyədə seçkilərin şəffaf keçirilməsi ilə bağlı mexanizm artıq formalaşıb, hər kəsin səsvermə prosesini izləmək imkanı var: "Qardaş ölkədə iştirak etdiyimiz məntəqələrdə seçkilərin tamamilə şəffaf keçirildiyinin şahidi olduq. Səsvermə məntəqələrinin qarşısında kifayət qədər uzun növbələr müşahidə edilirdi. Bu, Türkiyə vətəndaşlarının prezident və parlament seçkilərinə nə qədər böyük əhəmiyyət verdiklərinin göstəricisidir. Türkiyə xalqının budəfəki seçkilərdən gözləntisi də çoxdur. Parlament və birinci tur prezident seçkilərinin nəticələri də bir daha sübut etdi ki, Türkiyə vətəndaşları mövcud siyasətin davam etdirilməsində maraqlıdırlar. Onlar bu seçkiləri ölkənin gələcəyini müəyyən edən vacib proses kimi xarakterizə edirlər".

Deputatın sözlərinə görə, seçkilərin nəticələri mövcud siyasətin və Türkiyənin regional mövqeyinin daha da güclənməsinə imkan verəcək: "İkinci tur seçkilərdən sonra qurulacaq yeni kabinetin fəaliyyəti də yeni çağırışlara və gözləntilərə uyğun təşkil ediləcək. Parlament seçkilərində Ədalət və İnkişaf Partiyasının üstünlük əldə etməsi də önəmli məqamdır. Hakim partiyanın üstün mövqeyə sahib olması parlamentin fəaliyyyətinin stabilliyi üçün vacib idi".

Vüqar Bayramov vurğulayıb ki, seçkilərin demokratik normalara əsaslanaraq tam şəffaf başa çatması Türkiyə üçün yeni imkanlar yaradacaq: "Prezident seçkilərinin ikinci mərhələsindən sonra qardaş ölkənin mövqelərinin daha da möhkəmlənməsini, eləcə də iqtisadi islahatların dərinləşdirilməsini müşahidə edəcəyik".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***





# Mədəniyyət





● 18 May Beynəlxalq Muzeylər Günüdür

**Hər ilin bu günü - mayın 18-i dünyada Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd olunur. Bu əlamətdar gün xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək, eyni zamanda muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərmək məqsədilə Beynəlxalq Muzeylər Şurası (ICOM) tərəfindən 1977-ci ildə təsis edilib.**





# Tariximizdən soraq verən Şuşa şəhərinin muzeyləri

### *Qədim muzeylər*

Müasir muzeylərin sələfləri eramızdan əvvəl XVI əsrdə Krit, XIII-XII əsrlərdə Çin, III əsrdə Qədim Roma və Yunanıstanda estetik dəyərə malik əşyaların, əsərlərin, sənədlərin saxlandığı məkanlar hesab olunur. Azərbaycanın ərazisində qədim Atropatena və Albaniya dövlətləri hökmdarlarının sarayları da belə yerlər sırasında qeyd olunub. Araşdırmalara əsasən, erkən və Orta əsrlərdə isə ölkəmizdə hakim sülalələr tərəfindən kolleksiyaçılıq ənənələrinə maraq artıb. Həmin dövrlərdə qiymətli əşyalar xəzinələrdə, saray kitabxanalarında mühafizə edilib.

Azərbaycanda XIX əsrin ikinci yarısından etibarən muzey işinin təşkilinə diqqət yenidən güclənməyə başlayıb. Ölkəmizdə dövlət səviyyəsində ilk milli muzeyin təməli isə 1919-cu ildə - Xalq Cümhuriyyətinin dövründə qoyulub. 1920-ci ildən həmin muzey Azərbaycan Dövlət Muzeyi kimi fəaliyyət göstərib.

Sovet hakimiyyəti illərində Azərbaycanın müxtəlif yerlərində dövlət, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq, teatr muzeyləri yaradılıb.

Azərbaycanın mədəniyyət mərkəzi, Qarabağın baş tacı olan Şuşada 8 muzey fəaliyyət göstərib. Dövlət Qarabağ Tarixi Muzeyi, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin ev, vokal sənətimizin banisi Bülbülün memorial, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı tarixi əhəmiyyətli eksponatlarla zəngin olub.

### *Canlı muzey olan qədim şəhər*

1969-cu ildə fəaliyyətə başlayan Şuşa Tarix Muzeyi Yuxarı Gövhər ağa məscidində yerləşib. Muzeydə tariximizin qədimliyindən xəbər verən 2500-dən artıq eksponat nümayiş olunub.

Şuşa Azərbaycan şəhərləri arasında muzeylərinin çoxluğu ilə də seçilirdi. 10 avqust 1977-ci ildə SSR Nazirlər Sovetinin qərarı ilə Şuşa şəhərinin tarixi hissəsi "Tarixi Memarlıq Qoruğu" elan edilib.

Şuşa Xalça Muzeyi 1982-ci ildə Mehmandarovların malikanəsində açılıb. Muzeydə, əsasən, Qarabağ xalçaçılıq məktəbinə aid nümunələr nümayiş etdirilib.

1983-cü ildə Şuşa Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsinin əməkdaşları və şəhər camaatının birgə layihəsi ilə yaradılan Şuşa Daş Sənətkarlığı Muzeyi Azərbaycanda daş sənətkarlığına həsr olunmuş ilk muzey olub. Muzey Gəncə qapısının mühafizə zonasında açıq səma altında fəaliyyət göstərib.

1984-cü il iyulun 29-da Vaqif poeziya bayramında açılan Şuşa Dərman Bitkiləri Muzeyi isə Mehmandarovların yaşayış kompleksinə daxil olan bərpa edilmiş məhəllə məscidində fəaliyyət göstərib. Muzeydə dərman bitkiləri nümayiş olunub. Bir guşədə isə məşhur xalq həkimlərinin təbabətə aid kitabları düzülüb. Şuşa Dərman Bitkiləri Muzeyinin divarlarına Mirzə Sadıq Lətifov, Mirzə Məmmədqulu Təbib, Mir Möhsün Nəvvab, Mirzə Cavad Qayıbov, Mirzə Hüseyn, Əbdülkərim bəy Mehmandarov kimi el təbiblərinin yağlı boya ilə çəkilmiş portretləri asılıb.

Şuşa Dövlət Rəsm Qalereyası 1982-ci ildə fəaliyyətə başlayıb. Rəsm qalereyasının fondunda 50 rəngkarlıq, 30 qrafika əsəri nümayiş edilib. Qalereyada hər il mütəmadi olaraq sərgilər təşkil olunub.

Şuşa Azərbaycan tarixində müstəsna yeri və xidmətləri olan bir çox görkəmli şəxsiyyətin böyüyüb boya-başa çatdığı, fəaliyyət göstərdiyi şəhər kimi də tanınır. Onlardan bəzilərinin - Mir Möhsün Nəvvabın, Xurşidbanı Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri fəaliyyət göstərib.

Təəssüf ki, 1992-ci ilin mayında Şuşa erməni vandalları tərəfindən işğala məruz qaldı. Təcavüzkar Ermənistanın əsarəti altında qaldığı müddətdə Şərqi Zəngəzur və Qarabağın digər muzeyləri kimi Şuşada olan muzeylər də ermənilər tərəfindən talan edildi, dağıdıldı. Qarət edilən qiymətli eksponatlar Ermənistana daşındı.

2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın otuz ilə yaxın Ermənistanın işğal altında qalan əraziləri azad edildi. Müzəffər Azərbaycan Ordusunun zəfərindən sonra maddi və mənəvi itkilərimizin nə qədər böyük olduğunu gördük. Təcavüzkar ermənilər işğalın davam etdiyi illərdə Qarabağın və Şərqi Zəngəzurun bütün şəhər, rayon, qəsəbə və kəndlərini xarabalığa çevirmişdilər. Müharibə başa çatdıqdan dərhal sonra həmin yerlərin minalardan təmizlənməsi, yolların çəkilməsi, infrastrukturun yaradılması ilə bərabər zərərçəkmiş və dağıdılmış abidələrin, muzeylərin, kitabxanaların və başqa mədəniyyət ocaqlarının bərpası işinə başlanılıb.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Unudulmazlar

# Zamanın fırtınalarında keçən ömür...

**XX əsrin əvvəlləri idi. Sahilində böyüdükləri dəniz Mirzə Balanın və ondan altı yaş böyük qardaşı Həsənbalanın həm ümidi, həm də ən böyük təşvişləri idi. Anaları Fatma xanımın baxışlarında görüb tanımışdılar bu duyğuları. Ataları Əlibala kişi balıqçı idi. Ailəsinin ruzisini dənizdən çıxarırdı. Dənizdə bərəkət vardı. Ancaq hərdən üzü dönürdü, dalğalarını şahə qaldırıb sahillərinə çırpır, tufan qoparırdı ki, onda bütün balıqçılar kimi Əlibala kişinin də ailəsinin ən böyük qorxusuna çevrilirdi. Həyəcanla, intizarla, təlaşla ailə başçısının yolunu gözləyirdilər.**



Yenə də dənizə nemətlərinə görə minnətdar idilər. Amma maddi vəziyyətləri getdikcə çətinləşirdi. Əlibala kişi gün-güzəran, dolanışıq dərdindən ailəsini götürüb Zirədən Bakıya gəldi. Çəmbərəkəndin yuxarı məhəlləsində yenicə ev-eşik qururdu ki, əcəl qapısını döydü. Əlibala kişi üç övladını - iki oğlu və bir qızını Fatmanın ümidinə qoyub bu dünyadan köçdü.

Atasızlıq Mirzə Bala Məmmədzadəni uşaqlığından məhrum etdi. O, övladlarını kimsəyə möhtac etməmək üçün özünü oda-közə vuran anasının köməyinə çatdı. Mirzə Bala Fatmanın bişirdiyi çörəkləri küçələrdə, bazarda sataraq evə qazanc gətirməyə başladı.

### "Sizi bir insan olaraq vətən yaşadar!"

Uşaqlıq illərindən həyatın çiyinlərinə yüklədiyi çətinliklər Mirzə Bala Məmmədzadəni mətinləşdirdi. Bitib-tükənməyən qayğıların içərisində xəyal qurmağı da yadırğamadı. Məktəbə getmək, elm öyrənmək ən böyük istəyi oldu. Və böyük maddi sıxıntılar içərisində olsa da, arzusuna çatdı. "7-ci müsəlmani və rusi" məktəbində, sonra Alekseyev adına 3-cü Ali ibtidai məktəbdə təhsil aldı. Ancaq ailənin problemlərini çörək bişirib satmaqla həll etmək asan deyildi. 1912-ci ildə Mirzə Bala İsa bəy Aşurbəylinin "Kaspi" mətbəəsində fəhlə kimi işə başladı. 1915-ci ildə xeyriyyəçi İsa bəy Aşurbəylinin yardımı ilə Bakı Politexnik Məktəbinin Elektromexanika şöbəsində təhsilini davam etdirdi.

Mirzə Bala Məmmədzadə o vaxtadək Abdulla Şaiq, Süleyman Sani Axundov, Rəhim bəy Şıxlinski və Əliməmməd Mustafayev kimi dövrün tanınmış maarif xadimlərindən dərs almışdı. Bir sinifdə oxuduğu Cəfər Cabbarlı ilə ünsiyyəti dostluğa çevrilmişdi.

Dövrün gərgin ictimai-siyasi hadisələri həmyaşıdları kimi gənc tələbə Mirzə Bala Məmmədzadəyə də böyük təsir göstərirdi. Təhsil aldığı Bakı Politexnik Məktəbi inqilab əhvali-ruhiyyəsinə bürünmüşdü. Çarizmin müstəmləkəçilik siyasətinə qarşı çıxan tələbələr Azərbaycanın istiqlalı uğrunda mübarizələrini birləşdirmək, gücləndirmək məqsədilə gizli təşkilatlar yaradırdılar. Bu niyyətlə məktəbdə qeyri-leqal Məmmədiyyə təşkilatını qurdular. Mirzə Bala Məmmədzadə həmin təşkilatın ən fəal üzvlərindən oldu.

O, çox gənc yaşlarından mətbuatda çıxış etməyə başladı. 1915-ci ildən əməkdaşlıq etdiyi "Açıq söz" qəzetində xalqın tərəqqisində təhsilin, maarifin rolu, məktəblərdə mövcud olan problemlərdən yazdı.

"Açıq söz"lə yanaşı, "Bəsirət" qəzeti ilə də sıx əməkdaşlığa başladı. Həmin qəzetin bir neçə nömrəsinin baş redaktoru oldu. Bakıda 1917-ci ildə tələbələrin yayım orqanı olan "Gənclər sədası" və "İttifaqı-mütəllim" qəzetlərinə redaktorluq etdi.

### Vətənə, millətə sevginin ifadəsi

Gənc Mirzə Bala Məmmədzadə doğma Vətəninin çarizmin müstəmləkə zülmündən qurtuluşu, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mücadilə edənlərin sırasına qoşuldu. Bu yol onu siyasətə gətirdi. 1918-ci ilin 28 mayı - Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsinin qəbul edildiyi tarix bütün vətənsevərlər kimi Mirzə Balanın həyatının ən unudulmaz günü oldu.

Azərbaycan hökuməti Gəncədən Bakıya köçəndən sonra Mirzə Bala Məmmədzadə "Açıq söz", sonra "İstiqlal" qəzetinin buraxılışlarında iştirak etdi.

1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti fəaliyyətə başladı. Mirzə Bala dostu Cəfər Cabbarlı ilə parlamentdə stenoqrafçı vəzifəsinə işə düzəldi.

Mirzə Bala bədii yaradıcılıqla da məşğul olurdu. Dostu Cəfər Cabbarlı mart hadisələrindən Bakının qurtuluşunadək olan dövrü əhatə edən "Bakı müharibəsi" adlı dram, Mirzə Bala isə "Bakı uğrunda müharibə" adlı beşpərdəli pyes yazdı. Əsər 1919-cu ilin sentyabrında Abbas Mirzə Şərifzadənin rejissorluğu ilə Dövlət Teatrında səhnələşdirildi.

1918-1920-ci illərdə Mirzə Bala Məmmədzadə daha çox jurnalist kimi tanındı. "Azərbaycan" və "Bəsirət" qəzetlərində ictimai-siyasi həyatın bütün sahələrini əhatə edən yazıları dərc olundu. O, bir sıra məqalələrində cümhuriyyət hökumətinin, dövlət müstəqilliyimizin düşmənlərini ifşa edirdi.

1920-ci ilin 27 aprelində Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin sonuncu fövqəladə gecə iclası keçirildi. Hökumətin bolşeviklərə təslim edilməsi təklifi müzakirəyə çıxarıldı. Parlamentin stenoqrafçıları - Mirzə Bala Məmmədzadə və Cəfər Cabbarlı son iclası kağıza həyəcan və kədərlə köçürdülər.

1920-ci ilin 28 aprel işğalından sonra Mirzə Bala Məmmədzadə də bir çox Vətən övladları kimi təhlükələrlə, təhdidlərlə üzləşdi. O, bunlara dözüb bir müddət Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında tərcüməçi və orta məktəbdə müəllim işlədi.

Aprel işğalından sonra Cəfər Cabbarlının Çənbərəkənddəki evində keçirilən gizli iclasda yaradılan "Milli müqavimət komitəsi"nin Mirzə Bala Məmmədzadə rəhbəri, Əbdül Vahab Yurdsevər onun müavini, Cəfər Cabbarlı isə baş katibi seçildi. 1923-cü ilədək gizli mətbəədə "İstiqlal" qəzeti çap olundu.

1924-cü il yazın sonunadək o, gizli fəaliyyət göstərdi. Həmin ilin mayında İranın Ənzəli şəhərinə getmək məcburiyyətində qaldı. Oradan Tehrana, sonra Təbrizə yollandı. Bakı Politexnik Məktəbində aldığı təhsil sayəsində bir müddət şose yolu çəkilişində mühəndis-texnik işlədi. Cənubi Azərbaycanda mühacirətdə qaldığı 1924-1927-ci illərdə Mirzə Bala mühacirlərin fəaliyyətinə rəhbərlik etdi.

1927-ci ildə Türkiyəyə köçdü. İstanbul Universitetinin Hüquq fakültəsinə daxil oldu. Publisist kimi fəaliyyətini mühacirətdə də davam etdirdi, "Yeni Qafqaziya", "Azəri türk", "Odlu yurd", "Azərbaycan yurd bilgisi" jurnalları ilə əməkdaşlıq etdi.

Ömrü başlanğıcından sonunadək zamanın fırtınalarında keçdi. Mirzə Bala Məmmədzadənin 1898-ci ilin 24 mayında Bakının Zirə kəndində başlanan həyat yolu 1959-cu il martın 8-də sona çatdı. Ömrünü mühacirətdə başa vuran vətənpərvərlərimizin əksəriyyəti kimi o da Azərbaycanı azad, müstəqil görməyin intizarı ilə bu dünyadan köçdü.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Turizm



# Bir gəlmisən, bir də gəl

**Dünyanın elə ölkələri var ki, iqtisadiyyatının əsasını turizim təşkil edir. Makao, Palau, Qrenada, Maldiv adalarında ölkə gəlirlərinin 85-90 faizi turizm sektorunun payına düşür. Son zamanlar ölkəmizdə turizmə artan diqqətin sayəsində bu sahədə əldə edilən uğurlardan ürəklə danışa bilərik. Ümumdünya Səyahət və Turizm Şurasının hesabatına əsasən, Azərbaycan 2010-2016-cı illərdə turizmin ən sürətlə inkişaf etdiyi 10 ölkədən biri hesab edilir.**

Fərəhlə qeyd edə bilərik ki, turizm üzrə rəqabətqabiliyyətlilik siyahısında Azərbaycan 148 ölkə arasında 39-cu yerdə qərarlaşıb. Nəzərə alsaq ki, turistlərin ən çox üz tutduğu ölkələr siyahısında birinci onluğa Fransa, Amerika Birləşmiş Ştatları, İspaniya, Çin, İtaliya, Türkiyə, Almaniya, Böyük Britaniya, Meksika düşür, onda müstəqilliyinin 32-ci illiyində ölkəmizin turizm sahəsində tutduğu mövqeylə öyünməyə tam haqlıyıq. Turistlərin üz tutduğu əsas ölkələrin təbiət baxımından ən gözəl, təhlükəsizlik baxımından ən güvənli dövlətlər olduğunu nəzərə alsaq, ölkəmizdə turizmin getdikcə inkişaf edəcəyinə daha çox inamımız var.

İftixarla qeyd edə bilərik ki, zəngin tarixə və qədim mədəniyyətə malik Azərbaycan ərazisində 6 mindən artıq tarixi memarlıq abidəsi mövcuddur. Azərbaycan ərazisindən keçən Böyük İpək yolu boyunca qədim karvan yollarının üstündə yerləşən mədəniyyət nümunələri turistlərin ən çox diqqətini çəkən və hətta gözəllikləri, qədimliyi ilə heyrət doğura biləcək abidələrdən sayılır. İbtidai insanların Qobustan mağaralarında qayaüstü rəsmləri, islama qədərki dövrün mərasim tikililəri - atəşpərəstlik məbədləri, dağların zirvəsində məskən salmış alban kilsələri və ibadətgahlar, möhtəşəm qala divarları və qəsrlər, habelə geniş karvansaralar, islam mədəniyyəti dövrünün əzəmətli sarayları, memorial ayin və digər tikililər, habelə Bazardüzü (4466 m), Şahdağ (4243 m), Babadağın (3629 m) hündür zirvələri, Böyük Qafqazın cənub ətəklərindən axan çaylar, çoxsaylı şəlalələr, şəffaf Göy-Göl, Maral göl, Qobustanın sərt və eyni zamanda mənzərəli palçıq vulkanları, Lənkəranın nadir qoruqları, Abşeron və Nabran bölgəsinin müalicəvi əhəmiyyətli narın qumlu çimərlikləri Azərbaycanın zəngin turizm potensialının əhəmiyyətli tərkib hissələridir.

Bu gün ölkəmizdə turistləri dah çox cəlb edən məkanlardan biri və ən əsası qədim Bakıdır. Azərbaycan memarlığının nadir incisi olan İçərişəhər Qoruğu Bakının mərkəzində 22 hektarlıq ərazidə yerləşir. Bu qədim şəhərdə yüzlərlə tarixi abidə var. Bunlardan 4-ü dünya, 28-i yerli əhəmiyyətlidir. Qeyd etmək yerinə düşər ki, İçərişəhərdə 1300-dən çox ailə yaşayır, bir neçə muzey, 18 hotel, 100-dən artıq ticarət və iaşə obyektləri fəaliyyət göstərir. Xəzər dənizinin sahilində orta yüksəklikli təpəliklərdə qərar tutan İçərişəhər qala divarları ilə əhatə olunur. İçərişəhər Qız qalası və Şirvanşahlar sarayı ilə birlikdə 2000-ci ildən UNESCO-nun Dünya Mədəni İrsi siyahısına daxil edilib.

Eyni zamanda Bakının Ramana, Balaxanı kəndləri yenidən bərpa olunaraq turistlərin ən çox üz tutduğu məkana çevrilib.

Son vaxtlar ölkəmizə gələn turistlərin və səyyahların ən çox maraqlarına səbəb olan yerlərdən biri də işğaldan azad olunmuş torpaqlarımız, ələlxüsus da türk dünyasının mədəniyyət paytaxtı qədim Şuşadır. Bu qədim şəhərdə də sürətlə abadlıq işləri aparılır, turistlərin rahatlığı üçün mehmanxana və hotellər tikilir, tarixi abidələr bərpa edilir. Eləcə də tarixi abidələri, gözəl təbiəti, buz bulaqları, müalicəvi əhəmiyyətli suları, bulaqları ilə seçilən Kəlbəcər və Laçın rayonları da ölkəmizə gələn turistlərin ən çox üz tutduqları məkan olacaqları heç kimdə şübhə doğurmur.

Ölkəmizə gələn turistlərin istirahətlərini daha mənalı keçirmələri üçün dövlətimiz tərəfindən atılan ciddi addımları nəzərə alsaq, əminliklə deyə bilərik ki, Azərbaycan yaxın gələcəkdə turistlərin üz tutduğu ilk onluğa düşəcək. Buna ölkəmizin yerləşdiyi əlverişli məkan, bənzərsiz gözəlliyə malik təbiəti, göstərilən xidmət, yeni yaradılan turizm zonaları, Azərbaycan xalqının qonaqpərvərliyi və ölkəmizdə olan sabitlik deməyə əsas verir.

Ölkəmizin yeni turizm ailəsinə daxil olmuş Qusardakı Qış İdman Kompleksi, Nabranın təmiz havası, İsmayıllının qədim Basqal kəndində yaradılan gözəl şərait, Şamaxıda turistlərin rahatlığı üçün görülən işlər, tarixi mədəni abidələr, Qaxda yaradılan gözəlliklər, Naxçıvanda Batabat, Möminə xatun Türbəsi, Duz dağı, Yusif ibn Küseyr Türbəsi, Şəki Xan sarayı, Şəki Karvansarayı, Şəkinin Kiş kəndinin şimal-şərqində, Kiş çayının qollarından birinin sol sahilində, Qaratəpə dağının üzərində yerləşən, sıldırım qayalara söykənən "Gələrsən-görərsən" qalası, Qədim Qəbələ qalası, İsmayıllı rayonun Lahıc kəndi gözəlliyi və qədim tarixi ilə turistlərin ən çox maraq göstərdikləri məkanlardır.

Gözəl təbiəti, təmiz havası ilə seçilən, milli mətbəxi ilə ad çıxaran, qədim Gəncə, dünyada müalicəvi nefti ilə tanınan kurort şəhəri Naftalan, uca dağları, zəngin meşələri, ürəyə sərinlik gətirən saf suları ilə könülləri oxşayan Gədəbəy rayonunda turistlərin mənəvi dünyalarının rahatlığı, mənalı istirahətləri ən yaxşı məkanlardır.

Ölkəmizin inkişaf edən iqtisadiyyat artan siyasi nüfuzu, hərbi qüdrəti bu gün dünyanın diqqət mərkəzindədir. Azərbaycana olan maraq hər gün artmaqdadır. Müdriklərin belə bir deyimi var: öyrənmək üçün səyahət etməlisən. Tariximizi, milli adət-ənənəmizi öyrənmək, hər gün gözəlləşən Azərbaycanı görmək üçün vətənimizə gələnlərin, maraq göstərənlərin sayı günbəgün artmaqdadır. Unutmaq lazım deyil ki, gələn turistlər ölkəmizin iqtisadiyyatına güc qatmaqla yanaşı, gedəndə ölkəmiz və xalqımız haqqında kifayət qədər informasiyaya sahib olurlar. El arasında deyildiyi kimi qonağı qarşılamaq ev sahibinin davranışının göstəricisidir. Ölkəmizə gələn turistlərə, səyyahlara elə xidmət göstərilib, elə davranılmalıdır ki, bura gəlib-gedənlər bu gözəl yurdun gözəlliyindən danışa bilsinlər. Gələnə "bir də gəl" deməyi bacaraq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

● Xəbər

# Bu il Beynəlxalq Muzeylər Gününün devizi "Muzeylər. Dayanıqlılıq və rifah"dır

**Beynəlxalq Muzeylər Günü hər il UNESCO yanında Beynəlxalq Muzeylər Şurasının (ICOM) tövsiyəsi ilə müəyyən bir deviz altında qeyd olunur. Bu il Beynəlxalq Muzeylər Günü üçün "Muzeylər. Dayanıqlılıq və rifah" devizi seçilib. Bu deviz vətəndaş cəmiyyətinin bütün üzvlərini bir araya gəlməyə və muzeylərin dayanıqlı inkişafı və rifahı üçün malik olduğu bütün imkanlardan istifadə etməyə çağırır.**



Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Milli İncəsənət Muzeyində Beynəlxalq Muzeylər Günü çərçivəsində "Qorunan təbiət" multimedia layihəsinin təqdimatı təşkil olunacaq.

Beynəlxalq Muzeylər Gününün builki devizinə uyğun olaraq tərtib edilən layihə ekologiya, yeni incəsənət və kurator təcrübələri, ekoloji sənətkarlıq, həmçinin tekstil sənayesi ilə bağlı qeyri-adi muzey proqramını əks etdirir. Layihə BMT-nin 2030-cu ilə qədər davamlı inkişaf məqsədlərini dəstəkləyərək modanın və ənənəvi qadın sənətlərinin təbliğinə yönəlib.

Azərbaycan Milli Xalça Muzeyi əlamətdar günü bir neçə tədbirlə qeyd edir. Tədbirlər Mədəniyyət, Ekologiya və Təbii Sərvətlər nazirlikləri və ICOM Azərbaycan Milli Komitəsinin dəstəyi ilə keçirilir.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi və Bülbülün Memorial Muzeyinin birgə təşkilatçılığı ilə "Təbiətin musiqisi" adlı tədbir keçiriləcək.

# Bakıda Bədii Gimnastika üzrə 39-cu Avropa Çempionatının təntənəli açılış mərasimi olub











**Mayın 17-də Bakıda Bədii Gimnastika üzrə 39-cu Avropa Çempionatının təntənəli açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva açılış mərasimini izləyib.

Əvvəlcə iştirakçı ölkələrin paradı keçirilib.

Daha sonra hakimlərin, gimnastların və məşqçilərin adından and içilib. İspaniya Gimnastika Federasiyasının nümayəndəsi Monika Fornie Qarsia hakimlər, azərbaycanlı gimnast Güllü Ağalarzadə atletlər, Monteneqro yığma komandasının məşqçisi Vesna Radoniç isə məşqçilər adından təntənəli şəkildə and içiblər. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və idmanda ədalət prinsip və ideallarına riayət edilməsinin ən yüksək prioritetə sahib olduğunu bir daha xatırladıb.

Avropa Gimnastikasının prezidenti, Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov açılış mərasimində iştirakçıları təbrik edərək uğurlar arzulayıb. Azərbaycanın artıq beşinci dəfədir bədii gimnastika üzrə Avropa çempionatına evsahibliyi etdiyini xatırladan F.Qayıbov ölkəmizdə gimnastikanın bu növü üzrə iki dəfə dünya çempionatının təşkil olunduğunu deyib. Bildirib ki, bir neçə gün əvvəl Beynəlxalq Gimnastika Federasiyası Şurası 2027-ci il dünya çempionatını yenidən ölkəmizə həvalə edib. Bu münasibətlə bütün gimnastikasevərləri təbrik edirəm.

Yarışın yüksək səviyyədə təşkilinə görə, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya, yerli Təşkilat Komitəsinə və könüllülərə təşəkkürünü bildirən F.Qayıbov qeyd edib ki, belə mötəbər yarışın keçirilməsində dövlətin qayğısı danılmazdır. Azərbaycan Prezidenti İlham Əliyev həmişə idmana və idmançılara böyük diqqətlə yanaşır.

İştirakçılara uğurlar arzulayan F.Qayıbov çempionatı açıq elan edib.

Sonra məşhur müğənni Vaqif Nağıyev Azərbaycan Respublikasının Dövlət Himnini səsləndirib.

Açılış mərasimi Avropa çempionatı üçün hazırlanmış xüsusi şou ilə davam edib. Gimnastlarla yanaşı, məşqçilər və xoreoqraflar da bənzərsiz şounun bir hissəsi olub, tamaşaçılara xoş anlar bəxş ediblər. Xüsusi işıq effektləri ilə bol bədii proqramda təşkilatçılar çempionatın şüarı "Ulduz kimi parla"nı böyük ustalıqla gimnastikasevərlərə təqdim etməyi bacarıblar.

Daha sonra məşhur müğənni Hiss konsert proqramı ilə çıxış edib.

Bədii hissə başa çatdıqdan sonra gənc gimnastlardan ibarət qrup hərəkətləri komandaları beş ip və beş topla final proqramlarında xalça üzərinə çıxıblar.

"Ulduz kimi parla" şüarı ilə keçirilən qitə çempionatında 38 ölkədən 315 gimnast (böyüklər - 191, gənclər 124) mübarizə aparacaq. Fərdi gimnastlar ayrı-ayrı alətlər (top, halqa, gürzlər, lent), komanda hesabı və çoxnövçülük proqramında çıxış edəcəklər.

Qrup hərəkətləri üzrə komandalar böyüklər arasında beş halqa, üç lent və iki top, gənclər arasında isə beş ip və beş top proqramında güclərini sınayacaqlar.

Yarışda ölkəmizi böyüklər arasında fərdi növdə Zöhrə Ağamirova və İlona Zeynalova təmsil edəcəklər. Qrup hərəkətləri proqramında isə böyüklər arasında xalça üzərinə Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokina çıxacaqlar. Gənclərin yarışında isə Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərovadan ibarət qrup komandamız mübarizəyə qoşulacaq.

# Milli gimnastika arenasında Avropa çempionatı başlayıb

## Gənclərdən ibarət Azərbaycan komandası bürünc medal qazanıb







Mayın 17-dən 21-dək Bakıda "Ulduz kimi parla" şüarı ilə keçiriləcək Avropa çempionatında 38 ölkədən 315 gimnast mübarizə aparacaq. İdmançılar ayrı-ayrı alətlər (top, halqa, gürzlər, lent), komanda hesabı və çoxnövçülük proqramında çıxış edəcəklər.

Qrup hərəkətləri üzrə komandalar böyüklər arasında beş halqa, üç lent və iki top, gənclər arasında isə beş ip və beş top proqramında güclərini sınayacaqlar.

Yarışda Azərbaycanı böyüklər arasında fərdi növdə Zöhrə Ağamirova və İlona Zeynalova təmsil edəcəklər.

Qrup hərəkətləri proqramında isə böyüklər arasında xalça üzərinə Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokina çıxacaqlar. Gənclərin yarışında isə Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərovadan ibarət qrup komandamız ölkəmizi təmsil edəcək.

Qeyd edək ki, çempionata mayın 21-də yekun vurulacaq. Azərbaycan Gimnastika Federasiyasından bildiriblər ki, yarış iştirakçıları azarkeşlərə həyəcanlı emosiyalar bəxş edəcəklər. Onlar Hollivud ab-havasında dizayn olunmuş, eyni üslublu dekorasiya elementləri və işıq effektləri ilə tərtib edilmiş zalda sərilmiş qırmızı xalıdan keçərək yarış meydançasına daxil olacaq və peşəkar çıxışları ilə azarkeşlərin qəlbinə yol tapmağa çalışacaqlar.

Çempionatın ən məzəli siması isə şübhəsiz ki, Avropa Gimnastikasının maskotu - Luici adlı meymun olacaq. O, tamaşaçılara və gimnastlara öz zarafatları, maraqlı proqramları ilə təbəssüm və pozitiv əhvali-ruhiyyə bəxş edəcək.

Qeyd edək ki, bu, ölkəmizin bədii gimnastika üzrə təşkil etdiyi beşinci Avropa çempionatı olacaq. Bakı 2007-ci, 2009-cu, 2014-cü və 2019-cu illərdə bu növ üzrə qitə çempionatına evsahibliyi edib. Son məlumata görə, çempionatda mübarizə gənclər arasında beş ip və beş top yarışları ilə başlayıb. Azərbaycanın Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərovadan ibarət qrup komandası beş ip yarışlarında 29.450, beş top yarışlarında isə 29.000 xal toplayıblar.

Hər iki hərəkətdə 3-cü yer tutan gənc gimnastlarımız finala yüksəlib. İki hərəkətin cəmində 58.450 xal toplamış Azərbaycan komandası çoxnövçülükdə bürünc medal qazanıb. İsrail komandası Avropa çempionu olub, bolqarıstanlı gimnastlar isə gümüş medala sahibləniblər.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələri üçün tökmə sahəsinə lazım olan malların satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 26 may 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1053**

***Tender komissiyası***


# Ordumuzun Ermənistan mövqelərini atəşə tutması barədə məlumat tamamilə yalandır

Mayın 17-si saat 16:15 radələrində, guya, Azərbaycan Ordusunun bölmələrinin Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərini atəşə tutmaları barədə qarşı tərəfin yaydığı məlumat tamamilə yalandır, bunu qəti surətdə təkzib edirik.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

"Qeyd edək ki, gündüz saatlarından həmin ərazidə qatı duman var. Bu cür məhdud görmə vəziyyətində bölmələrimizin qarşı tərəfi atəşə tutması qeyri-mümkündür", - deyə məlumatda bildirilir.

# Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda mayın 18-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-14°, gündüz 20-25° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-10° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində əsasən gecə və axşam havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 21-26° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntı tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 7-12°, bəzi yerlərdə 15-17° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzurda - Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntı tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, yüksək dağlıq ərazilərdə 1°-dək şaxta, gündüz 7-12°, bəzi yerlərdə 15-18° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 19-24° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 15-20° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-10° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-14°, gündüz 20-25° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarının bəzi yerlərində arabir yağış yağacağı ehtimal edilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Səhər yağıntının tədricən kəsiləcəyi, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-13°, gündüz 18-23° isti, dağlarda gecə 5-10°, gündüz 15-19° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin kollektivi nazirlik yanında İctimai Şuranın katibi Fərhad Qaraşova əzizi

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Arif Qaraşova bacısı

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5792
Sifariş 1225

Qiyməti 40 qəpik